



# İMAM HÜSEYNİN (Ə) SON VƏSİYYƏTİ



***Bizə yetişən hədislərə əsasən İmamın (ə) son vəsiyyəti haqda belə nəql olunmuşdur: "Beşinci İmam Muhəmməd Baqirdən (ə) bu hədis nəql edilir. O, öz atası İmam Səccaddan (ə) və o, da İmam Hüseyndən (ə) belə nəql edir. Bu böyük İmam da öz atası Əmirəl-möminindən (ə) nəql edir. Həmçinin belə nəql edilir ki, İmam Hüseyn (ə) və İmam Səccad (ə) ömürlərinin axırında, şəhadət zamanı bu hədisi vəsiyyət etmişdilər. Hər dörd İmam (ə) bu mövzunu bəyan etmişdilər. İki İmam (ə) həyatlarının həssas anlarında bu hədisi nəql etmişdilər. Məlum olur ki, bu hədisin əhəmiyyəti böyükdür.***

***Xüsusilə də İmam Hüseyn (ə) Aşura günündə o zaman ki, bütün səhabələri və dostları şəhid olmuşdular, yəni o həssas anlarda öz son vəsiyyətini həm övladlarına və həm də bəşəriyyətə söyləmişdir. Buyurur: "Ey övladım, Allahdan başqa yardımçısı olmayan kəsə zülm etməkdən çəkin".***

Yardımçısı olmayan bir məzluma zülm etmək - bəzi hökumətlərin pənahı olmayan insanlara zülmü kimidir. Bəzi insanlar müəyyən bir millətə hakim olurlar, ona zülm edirlər. O millət də zalımkar qarşısında Allahdan başqa yardımçı görmür. Bu zülm çox pislənən bir zülmdür. Belə ki, Peyğəmbəri-Əkrəmin (s) buyurduğu kimi şər insanların bir millətə hakim olması o millətin rəftarının nəticəsidir: "Ümmətimə elə bir zaman gələcəkdir ki, alimlərdən qaçacaqlar. Necə ki, qoyun canavardan qaçır. O zaman ki, belə olar, Allah onları üç bəlaya düçar edər: 1. Onların mallarından bərəkəti alar. 2. Zalım bir rəhbəri onlara hakim edər. 3. Dünyadan imansız gedərlər".

Müdirin işçisinə etdiyi zülm də böyük zülmdür. Xüsusilə o zaman ki, işçi onun əlinin altında işləməyə məcburdur. Əgər bu zülmü qəbul etməsə, işdən çıxarılar. Çox hallarda bu cür müdirlər bu vəziyyətlərdən sui-istifadə edirlər. İşçini istismar edirlər. Əlbəttə işçi də gərək işini yaxşı yerinə yetirsin. Az iş görməsin, işini keyfiyyətsiz görməsin. Çünki bu da zülm olar.

Zülmün başqa bir növü isə pənahı olmayan insanlara zülm etməkdir. O zülmdür ki, ailə üzvləri bir-birinə edərlər. Ərlə arvadın, valideynlərin övladlarına etdiyi zülm kimi. O zaman ki, qadının himayəçisi yoxdur, ərinin zülmünə dözməyə məcburdur. Ya da əri abrını qorumaq üçün arvadının zülmünə dözməyə məcburdur. Bəzən qoca ananın oğlundan başqa həyatda başqa bir kimsəsi yoxdur. Ona görə də bu oğlunun kinayəli sözlərini eşitməyə, onun əziyyətlərinə dözməyə məcburdur ki, bu da övlad tərəfindən böyük günahdır. Qurani-Kərim övladlara valideynlərinə ehtiram göstərməsini xüsusilə vurğulayır. Övladın vəzifəsini ən ağır bir vəzifə adlandırır: "Pərvərdigarın hökm etmişdir ki, Ondan başqasına pərəstiş etməyəsiniz. Ata və anaya yaxşılıq edin. Əgər onlardan biri və ya hər ikisi sənin yanında qocalarsa, onlara "uf" demə. Onların üstünə qışqırma. Onları özündən uzaqlaşdırma. Onlara yaxşı söz de".

Bu ayənin xüsusi nöqtəsi odur ki, Yeganə Allaha pərəstişlə bir yerdə valideynə ehtiram göstərmək lazımdır.

Övlada da zülm etmək bəyənilməyən əməldir. Əgər bir övlad ailə qurmaq istəyirsə, həssas vaxtıdır və onun kobud rəftarlarını valideynə hörmətsizlik kimi dəyərləndirməyin.

Zülmün başqa bir növü isə himayəçisi olmayan insana zülm etməkdir. Qeybət, töhmət və




şayə yaymaq kimi. Çox təəssüf ki, zülmün bu növü çox yayılmışdır. Başqasının abrını aparmaq, ona töhmət vurmaq və onun haqqında yalançı şayələr yaymaq - böyük zülmdür. Çünki Allahdan başqa yardımçısı yoxdur. Bütün bunlar haqqun-nasdır (insan haqlarındandır). Əgər insan bu haqqı yerinə yetirə bilməzsə, aqibəti yaxşı olmaz. "Başqalarına xəyanət etmək və abrını aparmaq – Allah Təala ilə vuruşmaq kimidir".

İmam Hüseyn (ə) Aşura günü bizim hamımızı bu zülmlərdən çəkinməyə dəvət etmişdir. İmam Hüseynin (ə) bu nurani hədisi ancaq öz zamanına aid deyildir. Bu hədis hələ də canlıdır və onun bizim dövrümüzdə də nümunələrinə rast gəlmək olur. Ona görə də zehnimiz ancaq Şimir ibni Zilcöşən, Ömər Səd və ya İbni Ziyadın Əhli-Beytə (ə) etdiyi zülmlərə cəmlənməməlidir. Bəlkə bizim özümüz İmamın (ə) dediklərinə əməl etməyə diqqət etməliyik. İnsanın abrını qorumaq - ən vacib məsələlərdəndir.

Əgər günahkar insanlar bu şeylərə diqqət etmədən dünyadan gedərlərsə, cəhənnəmdə yanarlar ki, günahlarının küdurəti aradan getsin. Pak olub, behiştə düşmək ləyaqətinə nail olsunlar. Allahın rəhməti o qədər böyükdür ki, cəhənnəm də Onun lütflərindəndir. İnsanları paklamaq və təmizə çıxarmaq üçündür cəhənnəm. Əgər insan zalım olarsa, xüsusilə də Allahdan başqa himayəçisi olmayan birinə zülm edərsə - yeri cəhənnəmdir. Cəhənnəmdə Allahın lütfündən istifadə etmək əvəzinə, orada da öz hoqqabazlığına davam etmək istəyir. Elə bilir ki, həyatdadır. Ancaq Allahla belə rəftar edə bilməyəcəyini bilmir. Əgər bu cür insanlar həyatda az bir müddət üçün nəyəsə nail olurlarsa, başqaları təsəvvür etməsinlər ki, Allahın bunlardan xəbəri yoxdur. Həqiqətdə Allah bu insanlara möhlət verir ki, nə qədər bacarırlarsa öz zülmlərini və günahlarını artırsınlar.

Quran buyurur: "Kafir olan şəxslər güman etməsinlər ki, bizim onlara möhlət verməyimiz onlar üçün xeyirlidir. Biz onlara möhlət vermişik ki, günahlarını daha da artırsınlar və onları alçaq edən bir əzab vardır". ("Ali-İmran", 178).

Ona görə də diqqətli olmalıyıq ki, Allahdan başqa yavəri olmayan heç kimə zülm etməyək. Əgər kimsə zülm edib və ya başqasının zülmünə seyirci olub və onu müdafiə etməyibsə, bu səhvini düzəltməyə çalışsın. Allah da onun bu təqsirini bağışlayar".



# NİYƏ İMAM HÜSEYN (Ə) YADDAN ÇIXMIR?

## *İMAM HÜSEYNLƏ (Ə) ƏLAQƏDAR TEZ-TEZ VERİLƏN SUALLARA CAVAB*



***Şəhidlər sərvəri imam Hüseyn əleyhissəlamın əzadarlıq günlərini yaşamamız münasibəti ilə İmam Zaman (ə.c.) həzrətlərinə, əziz rəhbərimizə, hörmətli alim və müctehidlərə və eləcə də İmam Hüseyn (ə) məktəbinin bütün ardıcıllarına başsağlığı verirəm! Allah-taala bizləri dünyada imam Hüseyn əleyhissəlamın ziyarət və himayəsindən, axirətdə şəfaətindən məhrum etməsin! Amin!***

***Bu günlər Aşura hadisəsi, eləcə də imam Hüseyn (ə) məktəbi haqda bilik və mə`lumatımızı artırmaq üçün əlverişli bir fürsətdir. Yaxşı olardı ki, bu fürsətdən istifadə edərək, imam Hüseyn əleyhissəlamın qiyamı ilə əlaqədar, əksəriyyətin, xüsusilə də yeniyetmə və gənclərin zehnində yaranan bir çox şübhə və suallara aydınlıq gətirək.***

**Aşura nədir?**

Ləfz olaraq, onuncu deməkdir. Məhərrəm ayının onuncu günü deməkdir. Bu gün İmam Hüseyn və 72 tərəfdarının Kərbəla deyilən səhrada (İraqda olan bir şəhər) şəhid edildiyi gündür. On dörd əsrdir bu günün xatirəsinə İslam coğrafiyasında mərasimlər təşkil edilir.

**1400 il əvvəl üçün ağlamağın mənası nədir?**

Məsələnin zamanla bir əlaqəsi yoxdur. Məqsəd sırf tarixi bir hadisəni canlandırmaq deyil, əsl məqsəd tarixdə yaşanmış çox nadir olan bir hadisəni xatırlayaraq o hadisədə iştirak edən nümunəvi insanların söz və rəftarlarından nümunə götürməkdir. Yəni məsələ tarixi bir hadisə məsələsi deyil, dəyərlər və İslamın yaşadılması məsələsidir. Kərbəla hadisəsi tarixdə bənzəri olmayacaq qədər zəngin bir ibrətlər toplumudur. Bu mövzuda bizə haqq verə bilmək üçün Kərbəla hadisəsini araşdırmağımız lazımdır. Bu problemin cavabı ətraflı düşünən bir insan üçün: "Hər gün Aşura, hər yer Kərbəla" cümləsində çox gözəl bir şəkildə özünü tamamlamışdır.

**İmam Hüseyn (ə) əzadarlığının hikməti nədir?**

Bu məclislər kamil insan tərbiyəsində, ictimai quruculuqda, İslam mədəniyyətinin təbliğində mühüm rol oynayır. Aşura bəyanatlarını, söhbətlərini və şüarlarını nəzərdən keçirməklə əzadarlıq mərasimlərinin əhəmiyyətini anlamaq olar. Kərbəla ibadət, fədakarlıq, şücaət, təvəkkül, səbr, əmr be məruf və nəhy əz münkər məktəbidir. Xalqlar öz dinlərinin, namuslarının, torpaqlarının müdafiəsi yolunda candan keçməyi bu məktəbdə öyrənirlər.

İmam Hüseyn (ə) əzadarlığının ümumiləşdirilmiş şəkildə üç faydası vardır:

1. Dövrün zalımlarına etiraz və dünya məzlumlarının himayəsi;
2. Ədalət hissinin oyanışı və zalımlardan intiqam almaq arzusunun güclənməsi;
3. Haqqa çatmaqda və onun müdafiəsində müsəlmanların ictimai birliyinin təlimi.

**Nə üçün özünüzü döyürsünüz?**

Əhli-beyt qaynaqlarında özünü döymək deyilən bir şey yoxdur. İmamlarımız da belə bir iş etməmişlər. Ancaq sinəyə vurmaq bir matəm əlamətidir və dini cəhətdən bir qadağası da yoxdur. Bu iş özünü döymək və nəfsə əziyyət və qan çıxartmaq mərhələsinə çatmamalıdır

və ümumiyyətlə ifrata varılmayan bir çox yerlərdə çatmır da. Dini mənbələrimizdə bizə çatdırılan İmam Hüseynin (ə) xatırlanması və o həzrətə ağlamaqdır. Sinəyə vurmaq xatırlatma mərasimlərinə xüsusi bir canlılıq verir və yas əlamətidir. İnsanların çox az bir ağrıyla böyük ağrıları anlamaq üçün vasitə olur.

### Kərbəlanı xatırlamağın nə faydası var?

Kərbəlanı xatırlamaq haqqı, həqiqəti xatırlamaqdır. İslamın davamlılığı üçün fədakarlıq etməyi öyrənməkdir. Kərbəla zülmün qarşısında əyilməməyi, oxlar qarşısında olsa belə namazı qoruyub saxlamağı, qardaşlığı, Allah sevgisini, Qurana bağlılığı, yaxşılıqlara əmr edib pisliklərdən çəkindirməyi , vətəni sevməyi öyrətmək üçündür. Əgər Kərbəlanı xatırlamaq yuxarıdakı məqsədlər olmadan edilsə mənasız bir adət halını alar.

### Kərbəla hadisəsi necə xatırlanmalıdır?

Xatırlamağın forması, mədəniyyət və ənənələrə görə dəyişə bilər. Bir müsəlman olaraq bizdən istənilən bu böyük faciəni xatırlamaqdır. İxtilaflı mövzuda rəvayətlərdə ən diqqəti cəlb edən ünsür ağlamaqdır. İmamlarımızın dövründə İmam Hüseyn (ə) üçün təşkil edilən məclislərdə şer oxuyan şairlər vardı. De bil Xəzai bu şairlər arasında çox məşhur olan bir şairdir və İmam Rzanın (ə) hüzurunda şeir oxumuş, xalqı və İmamı (ə) ağlatmışdır.




### Əzadarlıq dövründə qara geyinməyin fəlsəfəsi nədir?

Əvvəla, qara geyimdə məxfilik əlaməti var. Digər bir tərəfdən, tarix boyu hakimiyyətdə olan insanlar şəxsiyyətinin ciddi qəbul olunması üçün qara geyimdən istifadə etmişlər.

Dünyanın əksər xalqları isə qara rəngi matəm və qəm-qüssə əlaməti kimi qəbul etmişlər. Qara rəngin əsil fəlsəfəsi isə onun işığa, nura zidd olmasıdır. Qara rəngli libas geyinən əzadar əzası keçirilən şəxsi itirməklə dünya işığından məhrum olduğunu bildirmək istəyir. İslam Peyğəmbərinin (s) vəfatının səkkizinci günü qızı həzrət Zəhra (ə) fəryad qopararaq deyir" "Ey ata! Sənin gedişinlə dünya öz işığını bizdən aldı..."

### Nə üçün əzadarlığa Aşuradan bir neçə gün əvvəl başlanılır?

İmam Hüseynə (ə) əzadarlıq keçirilməsi dinimizin və Peyğəmbər (s) və əhli-betinin (ə) göstərişlərindəndir. Amma bu əzadarlığın forması xalqın istəyindən asılıdır. Bəzi yerlərdə Aşura gününədək, bəzi yerlərdə İmamın üçünədək, bəzi yerlərdə isə İmamın yeddisinədək əzadarlıq keçirilir. İstənilən formada əzadarlıq keçirmək xalqın ənənələrindən asılıdır və bu müxtəlifliyin heç bir eybi yoxdur. Əsas məsələ Aşura hadisəsinin mahiyyətinin açıqlanması və xalqın həqiqətsevərlik və ədalətsevərlik hisslərinin oyadılmasıdır.

### İmam Hüseynə (ə) mərsiyə oxumaq hansı tarixdən başladı?

İmam Hüseynə (ə) mərsiyə oxumağın tarixçəsi Hz. Peyğəmbərin (s) hətta, Hz. Adəmin (ə) zamanına çatır. Çünki Peyğəmbəri Əkrəmin (s) özü və məsum İmamlar, İmam Hüseyn (ə) üçün mərsiyə oxumuş və xalqı buna təşviq etmişlər. Buna görə də İmam Hüseynə (ə) mərsiyə oxumaq çox keçmiş zamanlardan başlamışdır. İslamda isə təlimatçı, ictimai və siyasi proqramlardan biri olaraq təyin olunub beləcə davam etmişdir. Lakin İmam Hüseynə (ə) mərsiyə oxumaq, IX və X əsrdə "Rövzətuş- Şühəda" kitabının yazılmasıyla başlamışdır deyənlərin fikirləri biz tərəfdən qəbul edilmir.

# Hər gün Aşura, hər yer Kərbəla

**İmam Hüseynin (ə) qiyamına səbəb olan ən əhəmiyyətli faktor nə idi?**

İmam Hüseynin (ə) qiyamına səbəb olan üç əhəmiyyətli faktor bunlardır:

1) Yezid hökumətinin İmam Hüseyndən (ə) beyət istəməsi və İmamın (ə) da bu istəyin qarşısında şiddətlə müqavimət göstərib "Zillət bizdən uzaqdır" buyurması.

2) Qiyama hazır olan Kufə xalqının, İmamı (ə) israrla oraya dəvət etmələri.

3) İslamın Füruiddinindən olan, yaxşılığa əmr etmək pislikdən çəkindirmək əmriylə əməl etməsi.

**Əhli-beytə əzadarlıq keçirilməsi barədə rəvayət vardırmı?**

Bu mövzuda rəvayət çoxdur. Misal olaraq, bir neçə rəvayət göstərə bilərik:

1. İmam Sadiq (ə) buyurmuşdur: "Allah bizim şiələrimizə rəhmət etsin. And olsun Allaha, onlar mömindirlər. And olsun Allaha, onlar öz sonsuz kədərləri ilə bizim müsibətlərimizə həmdərddirlər."

2. İmam Rza (ə) buyurmuşdur: "Bizim müsibətlərimizi xatırlayıb, çəkdiyimiz əzablar üçün ağlayan kəs qiyamət günü bizimlə olacaq, bizim dərəcəmizə çatacaqdır. Bizim müsibətlərimizi bəyan edib ağlayan və başqalarını ağladan kəs gözlər ağlayacağı qiyamət günü ağlamaz. Hər kəs bizim işimizin ayağa qaldırıldığı bir məclisdə əyləşsə, qəlblərin öləcəyi gün qəlbi ölməz."

3. İmam Sadiq (ə) Füzeylə buyurdu: "Əzadarlıq məclisi qurub, Əhli-beytdən və onun başına gələnlərdən danışırsınızmı?" Füzeyl bildirdi ki, belə məclislər qurulur. İmam buyurdu: "Bizim işimizi dirildin. Bizim işimizi dirildənlər Allahın mərhəmətinə qovuşar..."

**İmam Hüseyndən (ə) sonrakı imamlar ona əza saxlayıblarmı?**

İmam Sadiq (ə) buyurur: "Aşura hadisəsindən sonra İbn Ziyadın ölümünədək Bəni-haşim xanımlarından heç biri sürmə çəkmədi, xına yaxmadı, evlərindən xörək bişdiyini bildirən ocaq tüstüsü qalxmadı. Qanlı Aşura faciəsindən sonra gözlərimiz daim yaşlı oldu."

İmam Səccad (ə) Kərbəla hadisəsi ilə əlaqədar bütün ömrünü göz yaşları içində keçirdi. Ona su təklif olunanda ağlayaraq buyururdu: "Peyğəmbər oğlu susuz öldürüldüyü halda mən necə su içim?!"

İmam Baqir (ə) Aşura günləri imam Hüseyn (ə) üçün əzadarlıq məclisi qurardı. Bu məclislərdən birində şair Kumeytin oxuduğu şerdən təsirlənən imam Baqir (ə) buyurur: "Var-dövlətim olsaydı, bu şerinə mükafat verərdim. Amma sənin mükafatın həzrət Peyğəmbərin (s) Həssan ibn Sabit haqqındakı duasıdır. Həzrət ona buyurmuşdu: "Biz Əhli-beyti daim müdafiə etdiyin üçün səni Ruhul-Qüdüs təsdiq edəcək."

İmam Kazim (ə) buyurmuşdu: "Elə ki, məhərrəm başladı, atam gülməzdi. Üzü kədərli olardı, məhərrəmin onunadək yanaqlarından yaş süzülərdi. Həmin gün atamın müsibəti son həddə çatar, fasiləsiz ağlayıb buyurardı: "Bu gün babam Hüseynin (ə) şəhadət günüdür".

İmam Rza (ə) buyurmuşdur: "Elə ki, məhərrəm ayı çatdı, atamı gülən görən olmazdı. Bu vəziyyət Aşura gününədək davam edərdi. Həmin gün atam son həddə kədərlənib ağlayar və deyərdi:

"Belə bir gündə Hüseyni (ə) qətlə yetirdilər. Ona Allahın salamı olsun."

Kərbəla müsibəti ilə əlaqədar imam Rza (ə) buyurmuşdur: "İmam Hüseynin (ə) müsibət günü gözlərimizdən fasiləsiz yaş axar, göz qapaqlarımız yara olardı."

Rəvayətlərə görə, əsrin imamı (ə) babasının şəhadətinə görə ağlayır.



## Aşura günü, niyə ən böyük müsibət günü olaraq tanıdılmışdır?

Abdullah ibn Fəzli Haşimi belə deyir: İmam Sadiqə (ə); “Niyə Rəsulullahın (s) son vəfat günü, Hz. Əli (ə), Hz. Fatimə (ə), Hz. Həsən və İmamların şəhidlik günləri deyil, yalnız Aşura günü ən böyük müsibət, qəm, kədər və matəm günü olaraq tanıdılmışdır?”- dediyimdə belə buyurdu: “Bunun səbəbi bundan ibarətdir: Əshabi-Kisa (Ali Əba) Allah qatında insanların ən qiymətlisi idilər.. Bunlar beş nəfərdir: ‘Hz. Peyğəmbər (s), Hz. Əli (ə), Hz. Fatimə (ə), Hz. Həsən (ə) və Hz. Hüseyn (ə).’ Hz. Peyğəmbər (s) vəfat etdiyi zaman hərçənd müsibət çox böyük idi, amma Əshabi-Kisadan dörd nəfər yaşayırdı, bunlar xalqın mərcəi və sığınacağı idilər. Hz. Fatimə (ə.s) şəhadətə çatdığında müsibətin çox böyük olmasına baxmayaraq xalq Əshabi-Kisadan üç nəfəri öz aralarında görüb ehtiyac duyduqları zaman onlara sığınırdılar. İmam Əli (ə) və İmam Həsəndə (ə) də vəziyyət eyni idi. Amma İmam Hüseyn (ə) şəhid edildiyində, Əshabi-Kisadan xalqın mərcəi və sığınacağı olacaq bir kimsə qalmamışdı. Buna görə İmam Hüseyn (ə) yaşamağı Əshabi-Kisanın yaşamağı olduğu kimi, onun şəhadəti də onların hamısının şəhadəti kimi idi. Bu səbəbə görədir ki Aşura günü, qəm, kədər və matəm baxımından günlərin ən müsibətlisi olaraq tanıdılmışdır.” Abdullah ibn Fəzli Haşimi sözünün ardında belə deyir: Mən İmam Sadiqə (ə); “O zaman İmam Səccad (ə) üçün nə deyirsiniz?” dediyimdə belə buyurdu: “İmam Zeynul- Abidin (ə), İmam və xalqa höccətdir. Lakin Rəsulullahı (s) görməmişdi, onun elmi ata və babalarından miras olaraq ona yetişmişdi. Amma İmam Əli (ə), Hz. Fatimə (ə), İmam Həsən (ə) və İmam Hüseyn (ə) Hz. Peyğəmbərlə (s) uzun müddət birlikdə olmuşlar. Xalq da onları Hz. Peyğəmbər (s) ilə birlikdə görmüşdü. Buna görə onlardan birini gördüklərində, Hz. Peyğəmbərin (s) xatirələri, söz və davranışları onlar üçün canlanırdı.”

## İmam Səccadın (ə) nəql etdiyi, Şamda özlərinə və əsirlərə edilən yeddi zülm nədir?

İmam Səccad (ə), Numan ibn Munziri Mədainiyə belə buyurdu: “Şamda yeddi zülm bizə edildi ki, əsir olduğumuz müddət ərzində bu cür bir zülm bizə edilməmişdi: 1- Şamda zalımlar qılınclarıyla bizə hücum etdilər və davul çaldıqları halda böyük bir cəmiyyətin arasında bizi gözlətdilər. 2- Şəhidlərin başlarını xanımlarımızın təxtirəvanları arasına soxdular, atam və əmim Abbasın başlarını, bibim Zeynəb və Ümmü Gülsümün qarşısına; qardaşım Əli və əmim oğlu Qasimin başlarını isə bacılarımın gözləri önünə gətirdilər; bəzən başlar yerə düşüb atların nalları altında qalırdı. 3- Şamın qadınları, damların üzərindən başımıza su və atəş tökürdülər. 4- Günün doğuşundan batmağına qədər, küçə və bazarda saz və avazla xalqın gözləri qarşısında bizi dolaşdırıb; “Ey insanlar! Bunları öldürün; çünki bunların İslamda heç bir möhtərəmliyi yoxdur” deyirdilər. 5- Bizi tavanı olmayan bir yerdə gözlədirdilər, gündüzləri şiddətli istidən, gecələri isə soyuqdan narahat idik, daim qorxu və iztirab içərisində idik. 6- Bizi qul satılan bazara apardılar, bizi kölə və nökər olaraq satmaq istədilər, amma Allah Təala bu əməli onlara mümkün etmədi. 7- Bizi bir ipə bağladılar, beləcə yəhudi və xristianların evlərinin qarşısından keçirərkən onlara “Bunların atası sizin atalarınızı Xeybər, Xəndək. ...müharibələrində öldürdülər, bu gün onların intiqamını bunlardan alın” deyirdilər.



## NİYƏ İMAM HÜSEYN (Ə) YADDAN ÇIXMIR?

İmam Hüseynin (ə) həyat tarixi, bəşər tarixində ən çox iz buraxan bir hadisə idi. Bu, elə bir hadisədir ki, indiyə qədər də səs-sədası əzadarlıq mərasimlərinin əmələ gəlməsinə səbəb olur. Burada maraqlısı budur ki, təhrikedici bir qüvvə yoxdur, ancaq pak dini və insani sevgidən qaynaqlanır. Bu böyük mərasimlərin səbəbi bu hadisəni əziz tutmaqdır. Heç bir təbliğata ehtiyacı yoxdur.

Bəzən biz bu həqiqəti bilirik. Ancaq çoxları üçün hələ aydın olmayan bir məsələ vardır ki, bu hadisəyə niyə bu qədər əhəmiyyət verilir?

Bu hadisə həqiqətdə iki məktəb olan fərdi və əqidə məktəbinin mübarizəsidir. Bu hadisənin alovu hələ də sönməmişdir. Bu mübarizə bütün peyğəmbərlərin (ə) və saleh bəndələrin mübarizəsinin davamıdır.

Həzrət Peyğəmbər (s) belə buyurub: “Həqiqətən qiyamətədək insanların qəlbində İmam Hüseynin məhəbbəti alovlanacaqdır”.

# İMAM HÜSEYNİN(Ə) ŞƏFAƏTİ



Böyük ustadlardan biri belə deyir: Bir gün dərs əsnasında şagirdlərdən bəziləri sözlərimə irad tutaraq, imam Hüseyn əleyhissəlamın qiyamətdə öz əzadarlarına şəfaət edəcəyinə dəlil və sübut gətirməyimi istədilər. Nə qədər dəlil gətirdimsə də, sözümü qəbul etməyib başqa dəlillər tələb etdilər. Çarəsiz qalıb fürsət istədim və bir müddətdən sonra onlara qənaətbəxş cavab verəcəyimə vəd etdim. Məqsədim Kufəyə gedib «Səhlə» məscidində bir müddət ibadət etmək və Allah-taaladan bu sualın cavabını qəlbimə ilham etməsini diləmək idi. Nəcəfi-əşrəfdən Kufəyə tərəf yollandım. Təzəcə yola düşmüşdüm ki, bir nəfər seyyidin mənimlə yanaşı addımladığını gördüm və deyəsən o da Kufəyə gedirdi. Yol boyu həmən seyyid tez-tez suallar verir və sanki mənimlə həmsöhbət olmaq istəyirdi. Qəlbimdə Allahla razi-niyaz etdiyim üçün onun suallarına çox qısa cavab verir, bununla da söhbətdən yayınmaq istəyirdim. Amma bir qədər sonra başa düşdüm ki, bu seyyid həddindən artıq məlumatlı adamdır və ömrümdə eşitmədiyim elmi söhbətlər edir. Seyyid Kufəyə nə üçün getdiyimi soruşdu və mən də əhvalatı olduğu kimi danışdım. O, bir qədər fikirləşdikdən sonra – Bir əhvalat danışmaq istəyirəm, mümkündür sualının cavabı aydınlaşsın – deyə söhbətə başladı:

–Bir gün cavan bir şah öz vəzir-vəkillərini toplayıb ova çıxmaq istədiyini bildirdi. Hamı şahın fikrini bəyənib ov tədarükü görməyə məşğul oldular. Ertəsi gün onlar təbiətin qoynuna çıxıb ov üçün münasib yer axtarmağa başladılar. Şah ətrafındakılara onu, qarşılaşdıqları ilk ovla tək buraxmalarını tapşırdı. Bir qədər sonra yamacında dayandıqları təpənin üstündə bir ceyran gördülər, əmrə əsasən hamı yerində dayandı və şah öz ovunu qovmağa başladı. Günün ikinci yarısınadək şah ceyranın dalınca at qovdu və nəhayət bir də ayılıb gördü ki, hava qaralmağa başlayır, ətrafındakı adamlardan səs-sorağ yoxdur, özü də ac-susuz və yorğundur. Nə etməli? Hansı istiqamətə getməli? Harada gecələməli? Bu fikirlərlə bir qədər gəzib-dolandıqdan sonra uzaqdan alaçıqlar görünməyə başladı və şah atını oraya sürüb bir alaçığın qapısında dayandı. Burada yaşlı qadınla bir kişi yaşayırdı. Onlar yorğun atlını görcək tez irəliyə gəlib atın cilovundan yapışdılar, qonağı içəri gətirib ona qulluq etməyə başladılar. Qonaq həddindən artıq ac və taqətsiz olduğundan ona şam hazırlamaq lazım idi. Lakin bu miskin ailənin dünya malından var-yoxları yalnız südü ilə dolandıqları bir keçiləri var idi və yemək hazırlamaq üçün ondan başqa heç bir şeyə gümanları gəlmirdi. Ər-arvad öz aralarında götür-qoy etdikdən sonra kimliyindən xəbərləri olmadığı və lakin Allah qonağı hesab etdikləri bu qəribə qonağa lazımınca xidmət etməyi hər şeydən üstün tutub, yeganə ümidləri olan keçini kəsdilər və ətindən kabab bişirib qonağı yetərincə yedirtdilər. Bütün söhbətləri eşidib, işləri diqqətlə müşahidə edən şah bu yüksək qonaqpərvərliyə, xalislik və insaniyyət tamaşasına baxırmış kimi bu səhnələrdən

mənəvi zövq alır, onların sadəliyinə məftun olurdu. Nəhayət səhər açıldı, şahın adamları uzun axtarışdan sonra gəlib onu burada sağ-salamat tapıb çox sevindilər. Şah əmr verdi ki, bu ər-arvadı mənim sarayıma gətirin.

Ertəsi gün sarayda böyük ziyafət təşkil edildi, bütün əyan-əşraf, vəzir-vəkil, münəccim və alimlər orada iştirak edirdi. Məclisin yuxarı başında şahla yanaşı həmin kişi ilə qadın da oturmuşdu. Şah üzünü məclis iştirakçılarına tutub əhvalatı olduğu kimi danışıb soruşdu: – Mən bunların yaxşılığının müqabilində nə etməliyəm? Hansı bir iş bunların mənə göstərdikləri xidmətin əvəzini ödəyə bilər? Bir nəfər «yeddi qoyun versən kifayət edər» – deyə dilləndi. Şah qəbul etmədi. İkincisi yetmiş qoyun, üçüncüsü yeddi sürü, kimisi yeddi kənd deyə təklif edirdi, amma şah hər dəfə – «olmadı» deyib başını etirazla yelləyirdi. Nəhayət onlar təəccüblə şahın üzünə baxıb bir söz demədilər. Saray alimi məclisdə toplaşanların təəccübünü izhar etmək üçün dilləndi: Şahım, olmaya bircə keçiyə görə bütün xəzinəni bunlara vermək istəyirsən?!

Şah təmkinlə sözə başlayıb dedi:

–Həqiqəti bilmək istəsəniz, bütöv bir xəzinə də bunların yaxşılığını ödəməz. Çünki, onlar Allah qonağına xidmət etmək üçün hər bir şeylərindən keçiblər. Bunların var-yoxu təkcə bir keçi idi və onu da qurban ediblər və əgər mən də onun əvəzini vermək istəsəm, gərək bütün var-yoxumu və şahlığımı onlara təqdim edim.



Ustad deyir: Seyyid bu əhvalatı danışıb qurtardıqdan sonra söhbətini imam Hüseyn əleyhissəlamla əlaqələndirdi. O, sözlərini davam etdirib buyurdu: Bəşəriyyət içərisində Allah aşiqləri az deyildir. Onların hər biri öz səviyyəsi və eşqi dərəcəsində öz məşuqları yolunda fədakarlıq etmiş və tarixin ən şirin sətirlərini öz qanları ilə yazmışlar. Amma Rəbbimiz – bu Böyük Məşuq öz aşiqləri arasında sanki özgə bir şey arayır, Onun yolunda hər bir şeyindən keçməyə hazır olan öz aşiqini görmək istəyir. Bəli, belə bir səadət yalnız imam Hüseyn əleyhissəlama qismət olmuş, bu böyük və ağır imtahandan yalnız o həzrət alnıaçıq və üzüağ çıxmışdır. Allah yolunda malından, canından, əhli-əyalından, keçmişindən, gələcəyindən və ümumiyyətlə hər bir şeyindən keçmiş bu ilahi şəxsiyyət – məsum imam hansı məşəqqətləri görmədi! Dünyada hansı bir dərd-bəla vardır ki, o həzrətin müsibətində onun mütləq nümunəsini tapmayaq!

–Seyyid kövrələrək qəhər içində məndən soruşdu: Allah-taala imam Hüseyn əleyhissəlamdan Onun yolunda hər bir şeyindən keçməsini istədi və o həzrət də tam xalisliklə bütün varlığını öz Pərvərdigarına təqdim etdi. İndi söylə görüm, Allah-taala da onun bu misilsiz fədakarlığının əvəzini vermək istəsə nə etməlidir?

Ustad deyir: Mən bir anlığa duruxdum, dilimə gətirmək istədiyim sözün məsuliyyətindən qorxub sükut etdim. Seyyid təbəssümlə dilləndi: Bilirəm qorxursan ki, deyəcəyin söz küfr və nasəza olsun. Amma mən deyim: Allah-taala da onun əvəzini vermək istəsə, öz mütləqiyyət və ilahi qüdrətini ona verməlidir. Lakin bu, qeyri-mümkün bir işdir və Allah heç kəsə öz ilahiyyətini verməz. Şəfaət necə? Pərvərdigari-aləm üçün imam Hüseyn əleyhissəlamın həqiqi möminlərə, öz aşiqlərinə şəfaət izni verməsi çətin bir işdirmi? Allah-taala İmam Hüseyn əleyhissəlam üçün şəfaət iznini əsirgəyərmi? Əlbəttə yox!

–Ustad deyir: Mən buradaca dayandım, çünki sualımın cavabını tapmışdım. Seyyidlə xudahafizləşib geri döndüm və sonralar o seyyidin kim olmasını anladım…

Ustad Misbah Yəzdi

# BİR MƏSİHİ HƏKİMİNİN KƏRBƏLA XATİRƏLƏRİ



*Doktor Nuyil Furcu amerikalı xristian bir həkimdir ki, həyat yoldaşı ilə bir yerdə keçən əsrin 90-cı illərində bir neçə il Müqəddəs Kərbəla şəhərində yaşamışdır. O, öz həyatının bu çox şirin və yadda qalan xatirələrini nəşr etdirmişdir.*

*Doktor Furcu deyir: "Mən əvvəllər gözəl Şikaku əyalətində yaşayırdım və oranın gözəl çayından ləzzət alırdım. Böyük bir villam var idi və çox bahalı maşına minərdim. Öz həyatımdan çox ləzzət alardım. Çox gözəl və yaddan çıxmayan vaxtlar idi".*

*O, davam edərək dedi: "Ancaq öz ixtisasıma görə 1990-cı ildə İraqa ezam olundum ki, Kərbəla şəhərinin tibb mərkəzlərinin birində xidmət edəm. Həyat yoldaşım Akanaşka polşa mənşəli amerikalı idi ki, məni çox məzəmmət edirdi. İddia edirdi ki, ağlımı itirmişəm gözəl həyatımı və rahatlığımı qoyub, İraqa getmək istəyirəm".*

*Bu amerikalı həkim davamında deyir: "Nəhayət İraqa, Kərbəla şəhərinə getdim. Heç vaxt o şəhəri yaddan çıxartmayacağam. Həmin şəhərdə və həmin vaxt çox xoşbəxt idim. Oranın əhalisi ürəyi açıq, mehriban, yaxşı və pak ürəkli idi. Hətta bəzi insanları tanımırdım, ancaq mənə yaxşılıq edirdilər. Baxmayaraq ki, Kərbəla şəhəri və onun əhalisi 30 il ərzində çox çətinliklər görmüşdülər, onların vəziyyəti yaxşı deyildi, ancaq yenə də kərim və ürəyi açıq insanlar idi. Həmin vaxt İraq dövləti hər ay mənə 3 min İraq dinarı verirdi ki, bu da təxminən bir neçə amerika dollarına bərabər idi. Ancaq mənim Kərbəlalı dostlarım bu pulun bir neçə qatını mənim üçün xərcləyirdilər".*

*O, öz xatirəsinin davamında deyir: "İraqa gəlməyimdən təxminən 3 ay sonra iraqlı məhbusların müayinə olunması üçün məni Kərbəlanın əsl həbsxanasına göndərdilər. Burada faciə hökm sürürdü, dərdlər və qəmlər baş alıb gedirdi. Bu məhbusların heç biri oğurluğa, xuliqanlığa, qətlə və başqa cinayətlərə görə həbsxanada deyildilər. Əksinə onlar dövlət rejiminin əleyhinə çıxdıqları üçün orada idilər. Onların gigiyenik vəziyyətləri o qədər pis idi ki, çoxları xəstə olurdular. Vəziyyət elə idi ki, oraya ikinci dəfə gedəndə məhbusların çoxu xəstəliyin şiddətindən can vermişdilər. Məhbusların bir çoxu isə çoxlu işgəncələr nəticəsində ölmüşdülər. Məhbusların çox hissəsi cavan müsəlman və möminlər idilər. Bu məhbusların bir çoxu cərəyanla işgəncə olunurdular və şiddətli zülmdən canlarını verirdilər".*

*Bu amerikalı həkim sonda deyir: "Kərbəla şəhərinin əhalisinin çoxu mömin idilər və İslami rəftarları vardı. Onlar iki məscidə (İmam Hüseyn hərəminə və Həzrəti Abbas hərəminə) çox bağlı idilər. Mən də bir neçə dəfə bu iki məkanı görmək üçün oraya getdim. Xüsusi ab-havası vardı, mənim üçün çox qeyri-adi idi. Hiss edirdim ki, qeyri-adi bir fəzadayam.*

*Xülasə, bu dövr mənim üçün çox yadda qalan və gözəl bir dövr idi".*

*İslami saytlara istinadən hazırladı:*
XƏDİCƏ TƏQİZADƏ

## *Hüseynin mesajı azadlıq, insancasına və şərəflə yaşamaq, hidayət, sevgi, qəhrəmanlıq və ülviyyətdən xəbər verir…*

# HƏZRƏT İMAM HÜSEYNDƏN 40 HƏDİS

***Müsəlmanlara necə yaşamaq, necə ölmək, necə sevmək, Allaha necə təslim olmaq və zalımın qarşısında necə durmağın lazım olduğunu əməl vasitəsi ilə öyrədən bir həyat və şəhidlik timsalıdır Hüseyn…***

Hz. İbrahim (ə) o quraqlıq və kimsəsiz səhrada, yoldaşıyla kiçik oğlunu tək başına buraxıb gedərkən, əllərini göyə açıb belə yalvarırdı: "Ey Rəbbim! İnsanların qəlblərini bunlara doğru yönəlt!"

Bu duanın qəbul olunmasının ən aşkar dəlili Hz. Xəlilullah İbrahim (ə) ilə Zəbihullah (Allahın qurbanı, Allaha qurban olan) İsmayılın (ə) pak nəsli olan Həzrəti Peyğəmbəri Əkrəm (s) ilə onun mübarək Əhli Beytinə (ə) qarşı bu gün bəşəriyyətin bəslədiyi sevgi və hörmətdir. Bu təmiz soyu yer üzərindən silməyə and içmiş düşmənlərin bütün səylərinə baxmayaraq nə Hz. Rəsulullahın (s), nə də onun mütəhhər nəslinin sevgisi insanların ürəklərindən əsla silinməmişdir. O uca insanın (s) mübarək Əhli Beyti (ə) arasında Hz. İmam Hüseyn ibn Əlinin (ə) tamam ayrı bir yeri olduğu şübhəsizdir. Haqq Təala, onun sevgisini bütün möminlərin ürəyinə yerləşdirmiş, onun adını yerin və göyün bəzəyi etmiş, mələklərdən cinlərə və insanlara çatana qədər bütün varlıq aləminin qəlbini Hüseynin (ə) eşqiylə alovlandırmış və uca Rəsulunun (s) diliylə "Hüseyn, hidayət çırağı və nicat gəmisidir." buyurmuşdur. Hz. Hüseyn (ə), həqiqi mənada bir qəhrəmanlıq simvolu və bir iman nümunəsidir. Onun bütün varlığıyla "Allaha qurban" olması müqabilində Allah Təala, onun sevgisini bütün möminlərin ürəyinə peyvənd etmiş, iman sahibi olan hər bir qəlbi Hüseyn nuruyla coşdurmuşdur.

İslam ümməti arasında İmam Hüseyni (ə) tanımayan, şəhidlər ağası (Seyyidüş-Şühəda) haqqındakı hədisləri eşitməyən və onun fəzilətlərindən bixəbər olan bir möminə rast gəlmək mümkün deyil. Sünni, Şiə, fərqi yoxdur bütün İslami mənbələr Hz. Hüseynin (ə) fəzilət və nadir şəxsiyyətini təsvir edən hədislərlə doludur.

Hənbəli məzhəbinin imamı Əhməd ibn Hənbəl öz sənədiylə Əbu Sabitdən nəqlən Cabirin belə dediyini rəvayət edir: "Əlinin kiçik oğlu Hüseyn (ə) məscidə girdi; Hz. Rəsulullah (s) onu göstərərək belə buyurdu: "Cənnət cavanlarının ağasını görmək istəyən Hüseynə (ə) baxsın." (İbni Kəsir, "əl-Bidayə vən-Nəhayə" c.8 səh. 206)

İbni Kəsr, Tirmizi və digər tanınmış Əhli Sünnə mənbələrində Rəsulullahın (s) "Hüseyn məndən, mən də Hüseyndənəm; Allah Təala Hüseyni sevəni sevər; Hüseyn, rəsulların pak övladlarındandır; O, xeyrin və səadətin qabaqcılı və bayraqdarıdır" buyurduğu yazılmışdır.

İbni Həcər Əskalani belə deyir: "Abdullah ibn Ömər, Kəbə divarının kölgəsində oturmuşdu, Bu zaman Hz. Hüseyn ibn Əli (ə) gəldi. Abdullah, onu görər-görməz "Budur, bu insan bu gün göylər əhli yanında, yer əhlinin ən sevimli insanıdır." dedi. (əl-İsabə fit-Təmyizis-Səhabə c.1 səh.335)

Bəli, Əli oğlu Hüseyn (ə) o uca şəxsiyyəti və hər insanı ovsunlayan təəccüblü xarakteriylə, insanlığa bir həqiqi azadlıq mübarizəsinin necə verilməsinin lazım olduğunu, özünün və ən əziz kəslərinin canı və əsarəti bahasına öyrətdiyi üçün əlbəttə, insanlığa nümunə olacaq və zülmə boyun əymək istəməyənlər qiyamətə qədər onun izi ilə gedərək şərəf və qurtuluşu dada biləcəklər.

Hüseynin mesajı azadlıq, insancasına və şərəflə yaşamaq, hidayət, sevgi, qəhrəmanlıq və ülviyyətdən xəbər verir…

Müsəlmanlara necə yaşamaq, necə ölmək, necə sevmək, Allaha necə təslim olmaq və zalımın qarşısında necə durmağın lazım olduğunu əməl vasitəsilə öyrədən bir həyat və şəhidlik timsalıdır Hüseyn…

İnsanlıq və mənəvi dəyərlərin pula satıldığı və insanların ülgü və ideallarından təcrid olaraq adi, məqsədsiz və dəyərsiz məxluqlar şəklində kökləşdirildiyi bu günümüzün dünyasının sədaqət və igidlik həsrətiylə qovrulan atmosferində Hüseynin yolu, insan övladı üçün sönməyən bir çıraq və bu amansız fırtınalar arasında limana mütləq salamatlıqla çatacaq yeganə nicat gəmisidir…

Bu şərəf və vəfa zəmzəmi, əsrlərcə insanlığın susuzluğunu yatırmış, korlanmağın qarşısını almış, insan həyatı və məqsədini ən mükəmməl təbirlərlə izah etmiş, haqq və həqiqət aşiqlərinin "niyə"lər və "necə"lər arasında çaşqınlığa uğrayıb yollarını itirmələrinin önünü almış, bərabəri, bənzəri olmayan "Kərbəla" və "Aşura"sıyla insanlıq tarixində sönməyəcək bir nuru yaymış, şərəf və izzət səmalarında parlaqlığıyla hər kəsə bələdçilik edən bir ulduz yaratmışdır.

Bütün kainatın yaradılış məqsədi olan Hz. Rəsulullahın (s) mübarək və mütəhhərr soyu və elm şəhərinin qapısı, Allahın aslanı Əliyyi Mürtəza (ə) ilə "Əbrar" ayələri və "Kövsər" surəsinin şanlı məzhəri, dünya və axirət qadınlarının xanımı Hz. Fatimeyi Zəhranın (s.ə)

canlarının şirəsi olan, cənnət cavanlarının ağası Şəhid Hüseynin (ə) mübarək söz və danışıqlarından yığılan bəzi hekayələri burada sizlərə təqdim etmək istədik.

Ümid edirik ki, bu incilər xas qullarına, Rəhmanın lütfü və kərəmiylə səmimi könüllərə bəsləyici bir qida olar, möminlərə Allah rizasına nail olmaq yolunu öyrədər və bu yolda bir rəhmət buludu meydana gətirər, Onun cənnətinə açılan bir "Hüseyn qapısı" nəsib edər ...

Cənnət cavanlarının ağası Hz. İmam Hüseynin (ə) hekayə və hədislərindən qırx ədədini cəm edərək "Hüseyni istək" və "Hüseyni Yol"un vurğunlarının xeyir-dualarını qazanmağı və beləcə Haqq Təalanın razılığına nail olmağı ümid etdik. Allah yanında məqbul və Allahın qulları üçün xeyrilərə vəsilə olar, inşaallah.

*Məhəmməd Təqi Rəhbər*

**1- Başqalarına qul olmamağın yolu**

Hz. İmam Hüseynin (ə) bir xütbəsindən:

"Ey insanlar! Adı uca olan Allah Təala, qullarını sırf Onu bilib tanımaqları üçün yaratmışdır. Onu tanıyınca Ona ibadət edərlər, Onun qulluğunda olarlar. Ona qulluq edən isə, Ondan başqasına qulluq etməkdən ehtiyacsız olar." (İləluş-Şəraye, c. 1, s. 9)

**2- Azad kəslərin ibadəti**

"Kimiləri (cənnət nemətlərinə olan) ehtiras və tamahlarından Allaha ibadət edər. Bu cür ibadət tacir sifətli insanların ibadətidir. Kimiləri (cəhənnəm) qorxu(sun)dan Allaha ibadət edər. Bu, kölə sifətli insanların ibadətidir. Kimiləri də nemətlərinin şükrünü əda edə bilmək məqsədiylə Allaha ibadət edər. Budur azad insanların ibadəti, azadların qulluğudur və qulluğun ən yaxşı şəklidir. (Tuhəful-Uqul, s. 246)

**3- İtrət kimdir?**

İmam Sadiq (ə) atası və cəddi vasitəsiylə Hz. İmam Hüseyndən (ə) belə nəql edir:

"Möminlərin Əmiri Hz. İmam Əlidən (ə) "Hz. Rəsulullahın (s) "Mən sizin aranızda iki ağır və qiymətli əmanət qoyub gedirəm. Biri Allahın Kitabı və digəri itrətim, Əhli Beytimdir" hədisində "İtrət və Əhli Beyt kimdir?" deyə soruşduqlarında Hz. Əli (ə) belə buyurmuşdu: "Mən, Həsən, Hüseyn və Hüseynin soyundan gələcək doqquz imamdır ki onların doq-quzuncusu qiyam edəcək Qaimdir. Kövsər hovuzu kənarında Allahın Rəsuluna qovuşana qədər onlar Allahın Kitabından, Allahın Kitabı da onlardan əsla ayrılmaz . " (Muntəxabul-Əsər, s. 92, Biharul-Ənvardan).

**4- Əhli-Beyti (ə) sevmək**

"Bizi sevməyi özünüzə vəzifə bilin. Çünki, bizi sevərək Allahın hüzuruna çıxanlar bizim şəfaətimizə nail olacaqlar." (əl-Fusulul-Mühimmə, s. 1185; Ədəbul-Huseyn, s. 135)

**5- Məsum İmamlar**

Zeyd, atası İmam Zeynul-Abidindən (ə), o da atası İmam Hüseyndən (ə) belə nəql edir:

"Hz. Rəsulullah (s): "Ey Hüseyn!" buyurdu, "Sən imamsan, imam qardaşısan və imam oğlusan, sənin soyundan doqquz məsum imam gələcəkdir ki, doqquzuncuları onların Mehdisidir. Nə xoşbəxt onları sevənə və təəssüflər olsun onlara düşmənçilik edənə!' "(Muntaxabul-Əsər, s. 94)

**6- Rəhbərliyə layiq olanlar**

İmam Hüseyn (ə) Hürr ibn Yezidi Riyahi və onun adamlarıyla görüşdüyü zaman Əsr namazından sonra oxuduğu xütbənin bir yerində belə buyurdu:

"Ey insanlar! Allahdan qorxaraq haqq sahibini tanısanız, Allah Təala sizdən razı olar. Biz Məhəmməd övladları bu işə (rəhbərlik), layiq olmadıqları bir şeyi iddia edən və sizlərə düşməncə davranıb zülm edən kəslərdən daha layiqik." (İrşadi Müfid, s. 205)

**7- Rəhbərliyin şərtləri**

İmam Hüseyn (ə), özünü İraqa dəvət edən Kufə xalqının məktublarına yazdığı cavabda belə deyirdi:

"Canıma and içərəm ki, Allahın Kitabıyla hökm edən, ədaləti təmin etmək üçün çalışan, Allahın dininə bağlı qalıb özünü Onun hökm və əmrləri çərçivəsində məsul görən kimsədən başqası imam, rəhbər və başçı olmağa layiq deyil." (İrşadi Müfid, 183).

**8- Dövlətin məqsədi**

"Allahım! Sən də bilirsən ki, bizim qiyamımız, səltənət həvəsiylə və ya dünya malına düşkünlüyümüz səbəbindən deyil. Məqsədimiz, sənin dininin ayələrini dirildib müstəqil etmək, sənə aid olan bu yer üzünü islah edib hər yerdə hüzur və təhlükəsizliyi təmin etmək, zülmə düçar olan qullarını zalımların şərrindən qurtarmaq və sənin fərzlərini, sünnələrini və əmrlərini tətbiq etməkdir." (Tuhəful-Uqul, s. 243).

**9- İdarəçi şəxsdə bəyənilməyən sifət**

"Bir idarəçinin ən pis xüsusiyyəti düşməndən qorxmaq, zəiflərə qarşı mərhəmətsiz davranmaq, kömək və lütfkarlıq etməyin lazımlı olduğu zamanda xəsislik göstərməkdir."

(Ədəbul-Hüseyn, s. 68, Mənaqibdən)

**10- Alimlərin məsuliyyət və mövqeyi**

"İnsanların rəhbərlik və idarəsi Allahın dinini tanıyan və Onun halal və haram mövzusunda etibarlı olan din alimlərinə buraxılmalıdır." (Tuhəful-Uqul, s. 242)

**11- Əməllərin yaxşı və pis sifətləri**

"Bilin ki, yaxşı əməl tərif və mükafata layiqdir. Yaxşı əməlin həqiqi üzünü görə bilsəydiniz onu, baxışları insana sevinc və fərəh verən gözəl üzlü biri olaraq görərdiniz. Əgər pis əməli lazımınca zehninizdə canlandıra bilməyiniz mümkün olsaydı, insanda nifrət və diksinmə oyadan və dözülməz dərəcədə çirkin birini görərdiniz." (Kəşful-Ğimmə, c. 2, s. 242)

**12- Mömini sevindirmək və fərəhləndirmək**

"Hz. Rəsulullahın (s) bu sözü mənim üçün isbat edilmiş vəziyyətdədir: "Namazdan sonra əməllərin ən xeyirli olanı, günah olmayan bir şəkildə mömini sevindirmək və fərəhlənməsini (məsrur olmasını) təmin etməkdir.' " (Biharul-Ənvar, c. 44, s. 192)

**13- Yaxşı əməlin mükafatı**

Ənəs ibn Malik belə deyir: "Ağamız, İmam Hüseynin (ə) hüzurunda idim. Bu arada içəriyə bir nökər girdi və İmam Hüseynə (ə) bir dəstə çiçək təqdim etdi. İmam, onun bu davranışını dərhal mükafatlandıraraq- "Səni Allah yolunda azad etdim, artıq azadsan."- deyə buyurdu. Buna görə mən heyrətlə -"Ağam!" dedim, "Bir dəstə gül əvəzində bir nökəri azad edirsiniz?!" deyə soruşduqda, İmam "Allah Təala bizi belə öyrədib tərbiyə etmişdir." buyurdu, Rəbbimiz-"sizə hörmət göstərən birinə siz daha çox hörmət edin"-buyurmuşdur. O nökərin mənə hədiyyə etdiyi güldən daha yaxşısı, onun azadlığı idi." (Biharul-Ənvar, c. 44, s. 195)

**14- Dinin dünyaya alət edilməsi**

Fərəzdəq belə rəvayət edir: "Kufə çevrimində, yolda Hz. İmam Hüseyn ibn Əliyə (ə) rast gəldim. İmam: "Ya Əba Firas, Kufədən nə xəbər?" deyə soruşdu. Dedim: "Ürəkləri sizinlə, amma qılıncları Əməvilərin xidmətindədir!". "Doğru söyləyirsən!" buyurdu və belə əlavə etdi: "İnsanlar dünyanın köləsidir, dinləri isə yalnız dillərində bir oyuncaqdır, dinləri dünyalarına yaradığı müddət dindardırlar, amma iş sınanmağa gəlincə, həqiqi dindarların çox az olduğunu görərsən!" (Kəşful-Ğimmə, c. 2, s. 244 və Tuhəful-Uqul, s. 250)

**15- Zülmdən çəkin**

İmam Hüseyn (ə) oğlu Əliyə (ə) belə buyurdu:

"Oğlum! Allahdan başqa köməkçisi olmayan birinə zülm etməkdən çəkin!" (Tuhəful-Uqul, s. 251)

**16- Günahkarların məhrumiyyəti**

"Allahın haram və günah qərar verdiyi bir məqsədin arxasında olan şəxs ümid etdiyi şeyi itirər və qorxduğu şey tez başına gələr." (Tuhəful-Uqul, s. 253)

**17- Düşkünlərə kömək**

"Kim bir möminin çətinliyini aradan qaldırsa, Allah Təala, onun dünya və axirət çətinliklərini aradan qaldırar. Allah, yaxşılıq edənə yaxşılıq edər, Allah yaxşılıq edənləri sevər." (Kəşful-Ğimmə, c. 2, s. 242)

**18- Nemətin şükrü olaraq yaxşılıq etmək**

"İnsanların sizə ehtiyac duyması, Allahın sizə verdiyi nemətlərdən biridir. O halda sizə verilən nemətlərin qədrini bilin və sizə gələn ehtiyac sahiblərinin ehtiyacını ödəyin ki, nemətinizi əzaba çevirmiş olmayasınız." (Kəşful-Ğimmə, c. 2, s. 244)

**19- Qürur sındırmamaq**

"Sizə bir ehtiyacını söyləyib əl açan birisi, bu halla qürurunu sizə təqdim edir deməkdir. O halda, siz də öz qürurunuza hörmətlə davranın və onun ehtiyacını ödəyin." (Kəşful-Ğimmə, c. 2, s. 208 və Biharul-Ənvar, c. 44, s. 196)

**20- Din nemətdir**

Bir nəfər Hz. İmam Hüseyndən (ə) "Onlara Rəbbinin nemətini söylə..." ayəsinin mənasını soruşdu. İmam belə buyurdu: "Buradakı əmr, Allah Təalanın quluna dinində kömək etdiyi və dini vasitəsiylə lütf etdiyi neməti izah edib söyləməsidir." (Tuhəful-Uqul, s. 251)

**21- Qürur üçün xərclənən mal**

"Şairlərə nə üçün pul verdiyi soruşulduqda: "Ən yaxşı mal, insanın qürurunun qorunmasına vəsilə olan maldır." buyurdu." (Kəşful-Ğimmə, c. 2, s. 243)

**22- Ehsan və yardım yağışı**

"Bir nəfər "Layiq olmayan birinə ediləcək ehsan və yardım heçə gedər." deyincə, orada olan Hz. İmam Hüseyn (ə) "Elə deyil." buyurdu, "Yaxşılıq və lütfkarlıq dediyin şey leysan yağışı kimi yağmalı, yaxşılar da, pislər də ondan faydalana bilməlidirlər." (Tuhəful-Uqul, s. 250)

**23- Comərdlik və xəsislik**

Hz. İmam Hüseyn (ə) bir şeirində belə deyir:

"Dünya sənə yardım etdiyində, fələyin çarxı tərsinə dönməmiş sən də dərhal hər kəsə yardım et. Çünki, dünya sənə comərdlik etsə (əlinə mal, mülk keçsə), comərdlik və yardım etməyin onu azaltmaz. Dünya səndən üz çevirəcək olsa, o zaman da xəsislik və əli möhkəm olmaq buna maneə törədə bilməz." (Ədəbul-Huseyn, s. 16, Mənaqibdən canlı)

**24- İnsanca şərəfli olmaq**

Aşura günü Qeys ibn Əşəs "Yezidin əmrinə təslim ol." dedikdə, İmam (ə) belə buyurdu: "Allaha and içərəm ki, qürursuz insanlar kimi davranıb əsla sizə beyət etməyəcəyəm, qorxaq kölələr kimi igidlik meydanından əsla qaçmayacağam!" (İrşadi Müfid, s. 216)

**25- Azad insanların ölümü**

"Ölümdən qorxmaq mənə yaraşmaz! Haqqı diriltmək və izzətə qovuşmasını təmin etmək yolunda ölüm nə qədər də asandır! İzzət və şərəf uğrunda ölmək, ölümsüz bir həyata qovuşmaqdır, zillətlə və şərəfsizcəsinə bir həyat isə mütləq ölümdən başqa şey deyil." (Ədəbul-Huseyn, s. 159, İhqaqul-Haqqdan canlı)

**26- Möminlə münafiqin fərqi**

"Üzr istəyəcəyin bir şeyi etmə. Çünki mömin pis bir şey etməz və bu səbəblə də üzr istəməz. Amma münafiq hər gün pislik edər və bu pisliyi üçün üzr istəyər."(Tuhəful-Uqul, s. 253)

**27- Nemətin qədrini bilməmək**

" 'İstidrac nemət içində əzab deməkdir. Hər növ pislik və zülmdən uzaq olan Allah Təala, bir quluna nemətlər verər, o qul bu nemətlərin şükrünü əda etməkdən məhrum olsa istidracda olması deməkdir." (Tuhəful-Uqul, s. 250)

**28- Cənnətə doğru yarış.**

Cəddim Rəsulullahın (s) belə buyurduğuna şahid oldum: "İki adam arasında anlaşılmazlıq və küskünlük olarsa, biri digərindən əvvəl davranaraq o birisinin könlünü alsa, cənnətə doğru yarışda irəli keçməsi deməkdir." (əl-Fusulul-Muhimmə, s. 186)

**29- Əvvəl salam verilər**

Bir nəfər İmam Hüseyni (ə) gördüyü zaman "Necəsiniz ağam? Sağlamlıq və afiyət içindəsiniz inşaallah?"

deyə sözə başladı. İmam "Sözə başlamazdan əvvəl salam verilər. Allah sənə sağlamlıq və afiyət versin inşaallah." buyurdu və yanındakılara dönüb; "Salam verməyənə qədər kimsəyə sizinlə danışma icazəsi verməyin." deyə əlavə etdi. Tuhəful-Uqul, s. 250)

**30- Bir əxlaq dərsi**

"Ey insanlar! Yardım və lütfkarlıq edən, qürur və möhtərəmlik qazanar. Xəsislik edən, özünü alçaq hala gətirər. İnsanların ən cömərdi, heç bir qarşılıq gözləmədən yardım edəndir. Əfvi ən uca olan insan, güclü və üstün olduğu zaman bağışlaya bilən insandır. Ən çox sileyi rəhm edən (yaxınlarına baş çəkib hallarını soruşan) kimsə, onunla əlaqəsini kəsənlərə baş çəkib hallarını soruşan kəsdir."

(Kəşful-Ğimmə, c. 2, s. 242)

**31- Qeybətin cəzası**

İmamın (ə) yanında bir nəfər biri haqqında qeybət edirdi. Bu səbəbdən İmam (ə) "Qeybəti tərk et." Buyurdu və "Çünki qeybət, cəhənnəm atəşinin itlərinin qidasıdır." (Tuhəful-Uqul, s. 250)

**32- Dünyanın dərhal keçici kölgəsi**

"Ey dünya zövqünə alışanlar! Bunlar əsla daimi deyil ! Daimi olmayan bir kölgəyə güvənmək əlbəttə axmaqlıq edib aldanmaqdır !" (Ədəbul-Huseyn, s. 15, Mənaqibdən canlı)

**33- Azad olmaq**

Aşura günü Yezid orduları xeymələrə hücum edərək Hz. İmam Hüseyn (ə) ilə xeymələrin arasını kəsincə, O Həzrət "Təəssüflər olsun sizə ey Əbu Süfyan nəslinin tərəfdarları!" deyə qışqırdı, "Dininiz yoxdursa və axirət əzabından qorxmursunuzsa, heç olmasa dünyanızda mərd və azad yaradılışlı olun! Sizin döyüşünüz mənimlədir, qadınlarla uşaqlardan nə istəyirsiniz?!" (əl-Luhuf, s. 70 və Ədəbul-Huseyn, s. 162)

**34- Allahdan yardım istəmək**

"Çətinliyə düşdüyün zaman insanlara əl açma. Ruziləri bölüşdürüb paylaşdıran Allah Taaladan başqasından ruzi istəmə. Ömrün yetsə, şərqdən qərbə bütün dünyanı gəzə bilsən, özlüyündə xoşbəxt və ya bədbəxt kimsənin olmadığını görərsən. (Yəni, xoşbəxtlik və bədbəxtlik Allahın əlindədir və hər ikisinə də necə çatacağını insan övladına Allah öyrətmişdir.)" (əl-Fusulul-Muhimmə, s. 188.)

**35- İmam Hüseynin (ə) köməkçilərinin fəziləti**

Hz. İmam Hüseynin (ə) Aşura gecəsi səhabələri və köməkçiləri ilə etdiyi danışığından: "Rəbbimi, təriflərin ən gözəliylə tərifləyir, həmdlərin ən yaxşısıyla Ona həmd edirəm. Rahatlıqda da, çətinlikdə də Ona həmd edirəm. Ey Rəbbim! Bizi imamətlə şərəfləndirdiyin üçün sənə şükrlər olsun! Quranla öyrədib yetişdirdiyin, Quranı öyrətdiyin, dininin fiqhinə alim etdiyin, bizə qulaq, göz və ürək lütf etdiyin üçün Sənə həmd edirik! Ey Rəbbim! Bizi şükr edən qullarından et! Mən öz səhabələrim və köməkçilərimdən daha vəfalı bir səhabələr, öz ailə və yaxınlarımdan daha vəfalı bir ailə görmüş, eşitmiş deyiləm! Allah sizdən razı olsun!" (İrşadi Müfid, s. 212)

**36- Dünya və Axirət**

Şair Fərəzdəqlə danışarkən İmam (ə) irtica ilə bu şeiri söylədi: "Dünya xoş kimi görünsə də, əbədi cənnət diyarı daha çox qiymətlidir. Əgər bu bədənlər bir gün ölmək üçün yaradılmışdırsa, qılıncların kölgəsində şəhidliyi seçmək insana daha çox yaraşar! İnsan övladının ruzisi Allahın təqdiriylə təyin olunduğuna görə, ruzi əldə etmək üçün daha az ehtiras və tamah göstərmək daha yaxşı deyilmi? Sərvət, əgər buraxıb getmək üçün toplanıb yığılırsa, insan övladı tərk edib gedəcəyi şeydə nə üçün bu qədər xəsislik etməkdədir?" (Kəşful-Ğimmə, c. 2, s. 240)

**37- Ölümün həqiqəti**

"Ölüm, sizi sıxıntı və çətinliklərdən qurtarıb ucsuz-bucaqsız cənnət və oradakı əbədi nemətlərə çatdıran bir körpü mövqeyindədir. Həbsdən xilas olaraq saraylarda yaşamaq istəməyən kim var?! Amma sizin düşmənləriniz üçün vəziyyət əlbəttə belə deyil. Onlar saraydan zindana keçər və çətin əzablara düçar olarlar." (Ədəbul-Huseyn, s. 160)

**38- Şəhidlik səadəti**

İmam Hüseyn (ə) Kərbəlada belə deyirdi: "Allah yolunda şəhid olmağı səadət, zalımlarla birlikdə yaşamağı isə mən çox acı bir zillət bilirəm ." (Tuhəful-Uqul, s. 249)

**39- Aşura günü İmam Hüseynin (ə) irtica ilə oxuduğu şer**

"Babam Allahın Elçisi, yaradılmışların ən üstünüdür və Allahın yer üzündə işıldayıb duran çırağı bizik. Mən Əlinin oğluyam, Haşim övladlarının təmiz soylu igidinin! Əlbəttə sırf bu iftixar belə yetər mənə. Peyğəmbər soyunu davam etdirən Fatimə anamdır mənim, qanad verilən Cəfər əmimdir mənim. Allahın Kitabı bizim aramızda dümdüz bir şəkildə enmişdir, bizim hidayətimiz və vəhyimiz dillərdə dastandır. Bütün insanlar üçün Allahın əmin və etibarlı arxa və sığınacağı bizik və bu həqiqəti insanlara gizli-açıq daim söyləmişik. Kövsər hovuzunun sahibləri bizik, dostlarımızı şəxsən Hz. Rəsulullahın (s) qədəhiylə Kövsərə şübhəsiz sirab edəcəyik. Bizim şiəmiz insanlar arasında ən əziz köməkçilərdir, düşmənlərimiz isə qiyamət günü ziyana uğrayacaq olanlardandır." (Nəfəsul-Məhmum, s. 219)

**40- Şəhidliyə tərəf qaçmaq**

Hz. Əli ibn Hüseyn (ə) belə deyir: "Atam Hz. Hüseyn ibn Əli (ə) ilə Kərbəlaya gedirdik. Harada dayansaq, nə vaxt təkrar yola düşsək həmişə Hz. Yəhya ibn Zəkəriyyəni xatırlayır, ondan danışırdı. Bir dəfə "Allah yanında dünyanın nə qədər dəyərsiz olduğu Yəhyanın başının yəhudi bir zinakara (fahişəyə) hədiyyə aparılmasından bəllidir." buyurdu." (Biharul-Ənvar, c. 45, s. 298)

# ƏN AĞILLI İNSANLAR KİMLƏRDİR?!

***Əmirəlmömininin Əli əleyhissalam buyurur: "İnsanların ən ağıllısı Allaha ən yaxın olan, eləcə də günah və alçaqlıqlardan ən uzaq olan insanlardır." ("əl-Əqlu vəl-cəhl" 139-cu səhifə)***

***Əmirəlmömininin Əli əleyhissalam bu hədisdə insan ağlının kamal səviyyəsini təyin etmişdir. Son dərəcə dəyərli və qiymətli olan bu hədis hər bir insana düzgün həyat yolunu göstərməkdədir.***

***Deməli, insanın ağlının tərəqqi etməsinin təzahürü həmin insanın Allaha yaxınlaşması və çirkinliklərdən, zillətdən uzaq olmasındadır.***

***Dostlar, baxın, maqnit harada dəmir qırıntıları olarsa onları özünə cəzb edir. Əgər bir miqdar pambığı maqnitə yaxınlaşdırsaq maqnit həmin pambığı özünə sarı çəkməyəcək. Lakin əgər biz həmin pambığın arasına bir qədər dəmir qırıntıları qoysaq onda maqnit həmin pambığı özünə çəkərək cəzb edəcəkdir. Burada əslində maqnitə sarı cəzb edilən pambıq deyil, əksinə pambığın içində olan dəmir qırıntılarıdır.***

***Günahlar sanki bir maqnit və haram tikə isə dəmir qırıntılarıdır. Əgər insan haram yeməklərdən uzaq olarsa o, pambıq kimi maqnitin yanından keçəcək və maqnit, yəni günahlar həmin insanı cəzb edə bilməyəcək. Amma insan haram yemək yedikdə günahların kənarından keçə bilməyəcək və maqnitə, yəni günahlara cəzb ediləcəkdir.***

**Bu, haram tikə və haram yeməyin xasiyyətidir.**

Bunun əks misalı isə budur ki, savablar və yaxşı işlər sanki bir maqnit və halal tikə, halal yemək isə sanki dəmir qırıntılarıdır. Əgər bir insanın yeməyi və qazancı haramdan olarsa həmin insan o pambıq kimi savab işlərin və yaxşılıqların yanından keçəcək və maqnit, yəni yaxşı işlər həmin insanı özünə cəzb etməyəcəkdir.

Amma əgər insanın yeməyi yüz faiz halal olarsa insan yaxşılıqlardan, savab işlərdən uzaq olmayacaq və maqnit, yəni savab və yaxşı işlər həmin insanı özünə cəzb edəcəkdir. İbadətlərin yanından keçəndə ibadətlər onu cəzb edəcəkdir. Ziyarətgahların, İmamzadələrin yanından keçəndə həmin insanda ziyarət etmək ruhiyyəsi və meyli baş qaldıracaqdır. Məscidlərin yanından keçəndə məscidə daxil olaraq namaz qılmaq və Quran oxumaq istəyi onda baş qaldıracaqdır. Əxlaq dərslərinə, moizələrə, şəhidlərin türbətlərinə, qohumlarla yaxınlarla görüşməyə... həmin insanın qəlbində meyl və istək yaranacaqdır.

Bu, halal tikənin və halal qazancın xasiyyətidir. Halal tikə, halal yemək, halal qazanc insanın qəlbini nurlandırır. İnsanın halal (düzgün) düşünməsinə, halal (düzgün) əməl etməsinə səbəb olur.

Bütün itaətlər, ibadətlər, yaxşılıqlar və savablar cəzbetməyə və təmayülə malikdirlər. Bunların hamısının halal yemək ilə, halal qazanc ilə harmoniyaları, uyğunluqları vardır. Hətta nəinki təkcə halal tikə, bəlkə halal məskən, halal paltar, halal iş və sair. Halal yolla əldə edilmiş mənzil insanı həmin evdə ibadətlərə, qonaqlıqlara, imam məclisləri keçirməyə, Quran oxumağa ... cəzb edir.

Amma əgər həmin mənzil haram yolla əldə edilmiş olarsa insan həmin evdə qeybət etməyə meylli olur.

İnsan haram yedikdə onun düşüncəsi də haram olur. Bu da bəllidir ki, insanın əməli onun düşüncəsindən asılıdır. Düşüncəsi haramdan yoğrulmuş insanın əməl və rəftarı da haram olacaqdır. Belə olduqda həmin insan camaata pislik edəcəkdir, insanlara böhtan atacaqdır, insanlara əziyyət edəcəkdir. Sözün qısası belə adamlardan hər bir cinayəti gözləmək olar. Tarix də buna sübutdur.

Bəşər tarixinin ən böyük müsibəti Kərbəla müsibətidir. Bu sual hamını düşündürmüşdür ki, necə oldu ki, sevimli peyğəmbər həzrət Muhəmmədin –səllAllahu əleyhi və alih- vəfatından 50 il sonra "müsəlmanlar" zamanın İmamını və Peyğəmbərin övladını qətlə yetirdilər?!

Bu sualın cavabını həmin zamanın İmamı özü vermişdir.

İmam Hüseyn əleyhissalam Kərbəlada Aşura günü üzünü onunla müharibəyə gəlmiş dırnaqarası müsəlmanlara tutub onların niyə İmamı öldürməyə gəlmələrinin səbəbini belə açıqladı:

"Həqiqətən sizin qarınlarınız haram ilə doludur və beləliklə də qəlblərinizə möhür vurulmuşdur." ("Biharul-ənvar" c.45, səh.8), ("Ləvaicul-əşcan", səh.129).

Sonda onu da xatırlayaq ki, halal ilə haram qarışanda, itaət ilə günahlar da qarışırlar.

Rza Əzizoğlu
İlahiyyat və Əxlaq tədqiqatçısı



# İDEAL DİNDARLIQ İMANLA GÖZƏL ƏXLAQ BİRLƏŞƏRKƏN YARANIR

İslam, ideal dindarlığı onun insan tərəfindən xoş niyyətlə, səmimiyyətlə, biliklə və gözəl şəkildə yerinə yetirilməklə ölçür. Bu xüsusiyyət imanla gözəl əxlaq birləşərkən yaranır. İman üzərində edilən səmimi dindarlıq mədəni davranışa, saf etnik dəyərlərə zəmin yaradarkən, həm də insanın imanını da qüvvətləndirir. Səmimi dindarlığın uzunömürlü olması isə elmlə mümkündür. Elmə əsaslanmayan, şüurlu yerinə yetirilməyən və yaxud da səhv biliklərə arxalanan dindarlıq dinimizə ziddir. İslamda insanın nəyə inandığı, hansı əməli yerinə yetirdiyi, etdiyi ibadətin hansı mahiyyət daşıdığını bilməsi zəruridir. Qurani Kərimin ilk nazil olan ayələrini "Oxu" xitabı ilə gəlməsi elmə əsaslanan dindarlıq üçün əhəmiyyətlidir. Bundan başqa, Quranın bəzi ayələrində, təqvaya söykənən məntiqli dindarlığın, ancaq, elmlə mümkün ola biləcəyinə işarə edilməkdədir: "...Allahdan Öz bəndələri içərisində ancaq alimlər qorxar..." (əl-Fatir, 28). "...De: Heç bilənlərlə-bilməyənlər (alimlə-cahil) eyni ola bilərmi?! (Allahın ayələrindən, dəlillərindən) yalnız ağıl sahibləri ibrət alar!" (əz-Zumər, 9).

Ayələrə diqqətlə baxdıqda dindarlığın, Allaha olan münasibətin, dini həyat tərzinin elmlə birbaşa əlaqəli olduğu ortaya çıxır. Elə isə bilmək, şüurlu davranmaq dinimizdə çox əhəmiyyətlidir.

Həqiqi dindar olmaq üçün sadəcə biliyə yiyələnmək yetərli deyil, bunun üçün bilikdən doğru istifadə etmək, incəlik, gözəllik, səmimiyyət, estetik ölçü, mədəniyyət və s. də gərəkdir. İbadətin gözəl şəkildə icrası, dindar üçün həzzverici, cəmiyyət üçün isə etibarlı olmalıdır. Ancaq bu gün təəssüf ki, özünü dindar sayan bəzi insanların davranışları ancaq özləri üçün həzzvericidir. Elə "dindarlar" var ki, əqidə və ibadət məsələlərində dözümsüzlük nümayiş etdirərək onlar kimi düşünməyənləri müxtəlif dini terminlərlə adlandıraraq, onlara qarşı zorakılığı da dinin əmri kimi qələmə verməyə çalışırlar.

Halbuki, Müqəddəs Kitabımız dində məcburiyyətin olmadığını və insanların öz əməllərində məhz özlərinin cavabdeh olduğunu birmənalı şəkildə bəyan etmişdir.

Dinin səmimi yaşanması onun mesajının doğru şəkildə insanlara çatdırılması üçün də əhəmiyyətlidir. Qurani Kərim İslama hikmət və gözəl öyüdlə dəvət etməyi və inkar edənlərlə ən gözəl şəkildə mübarizə aparmağı istəyir.

İslam elə bir dindarlıq istəyir ki, müsəlman həmin davranışı ilə düşmənlərini belə, özünə dost edə bilir. Aşağıdakı ayədən bu nəticəyə gəlmək mümkündür: "Yaxşılıqla pislik eyni ola bilməz! (Ey mömin kimsə!) Sən (pisliyi) yaxşılıqla dəf et! (Qəzəbə səbrlə, cəhalətə elmlə, xəsisliyə comərdliklə, cəzaya bağışlanmaqla cavab ver!) Belə olduqda aranızda düşmənçilik olan şəxsi, sanki yaxın bir dost görərsən!" (Fussilət, 34). İslam insanın dinə uyğun yaşamasını istəyir. Lakin bu istəyi yerinə yetirib həqiqi dindar olmaq üçün biliyə ehtiyac var. Ancaq bilikli şəxs Allah-Təalanın ona verdiyi şüurla həqiqi dindar ola bilər. Beləcə dindarda davranışları arasında uyğunsuzluq yerinə mütənasiblik yaranar. Yəni, dindar hər zaman ondan gözlənildiyi kimi, gözəl əxlaq və davranış nümayiş etdirər.

Həqiqi dindar təqvalı, gözəl əxlaq sahibi, gülərüzlü, etibarlı, əhdinə sadiq, comərd, təvazökar, heç kimə zərər verməyən, haqsızlıq etməyən, yaxşı işlər görən, görülən işin haqqını verən, ona həvalə olunan işi məsuliyyətlə və layiqincə yerinə yetirən, yalan danışmayan və sairdir.

Beləliklə, həqiqi dindarlığa İslamın əsaslarına uyğun hərəkət edərək və hər şeydən öncə doğru biliyə söykənərək dini yaşamaqla nail olmaq mümkündür.

# DİN VƏ ONUN ƏSAS DAYAQLARI

***"Din" kəlməsinin müxtəlif mənaları vardır. Onlardan: "cəza", "itaət", "adət", "hökm", "bağlılıq", "qəhr və qələbə" və s. qeyd etmək olar. Amma, bu sözün ən mühüm və ümdə mənası "İtaət və əmrə tabe olmaqdır". Əlbəttə, dinin "bağlılıq" mənasında olmasını da nəzərdən qaçırmaq olmaz.***

Bütün bu mənalara diqqət yetirməklə din anlamını belə tərif etmək olar:

1. Varlığın mənşəyinə itaət üçün insan həyatını nizama salan qanun və hökmlər toplusuna din deyilir.

Yuxarıdakı tərifi daha da dəqiqləşdirmək üçün dini belə də tərif etmək olar:

2. Din - varlığın mənşəyinə əqidə yolunda insanın rəftar və əməllərində qəbul etdiyi bir bağlılıqdır.

Bu iki tərifə əsasən dinin iki mühüm və əsas kökü olacaqdır:

1.Varlığın mənşəyinə əqidə;

2.Bu əqidədən doğan tələblərə əməl etmək.

İnsanların, varlığın mənşəyi haqda olan baxışları müxtəlif olduğundan, onların dinə olan münasibətləri də bir-birindən fərqlidir. Ayrı-ayrı şəxslər və ya cəmiyyətlər arasındakı dini ixtilafların da kökü məhz budur.

Mərhum Əllamə Təbatəbai din haqda belə deyir: "Quran nöqteyi-nəzərindən, xalq arasında mövcud olan ictimai adət və ənənələrə din deyilir. Bu ictimai adət-ənənələr də öz növbəsində fitri və haqq dinə və bir də təhrif olunmuş və qeyri-fitri dinə bölünür."

Digər bir cəhətdən də, ilahi dinlər ayrı-ayrı fərdlərin və cəmiyyətin islahı, təkamülü, nicat və xoşbəxtliyi üçün göndərilmişdir. Ona görə də dinin mahiyyətini başqa bir ifadə ilə belə izah edirlər: " - Din, Allah-Təala tərəfindən bəşəriyyətin xoşbəxtliyə çatmasından ötrü haqq peyğəmbərlərə nazil olan hökmlər və göstərişlər toplusudur. Ona görə bu əmrlərə və qayda-qanunlara tabe olmağı lazım bilmişdir ki, insanlar bunlara tabe olmaqla Allahın vəd və zəmanət verdiyi səadətə çatsınlar."

Bəzi alimlər və tədqiqatçılar isə din haqqında belə demişlər: "Din elə bir ilahi quruluşdur ki, ağıl və təfəkkür sahiblərini öz iradə və ixtiyarı ilə dünyada xeyirə və axirətdə isə səadətə tərəf sövq etdirir və onları düzgün yola istiqamətləndirir."

Qərb alimləri də din haqqında müxtəlif mülahizələr irəli sürmüşlər. Onlardan bəziləri deyirlər: "Din, yaranmışların yaradan qarşısındakı, insanın Allah, cəmiyyət və özü qarşısındakı vəzifələr toplusudur". Yaxud, - "Din insanların öz vacib və zəruri vəzifələrini ilahi əmrlərin nəzərə alınması əsasında olduğunu dərk etmələrinə deyilir."

Başqa bir tərifdə deyilir: " - Din, həmin ibadətdir. İbadət iki məqalədən, iki ünsürdən ibarət bir əməldir."

1. İbadət insan ağlının qəbul və təsdiq etdiyi bir əməldir. İnsan onun vasitəsilə yenilməz bir qüvvənin varlığını qəbul edir;

2. İbadət məhəbbətlə yoğrulan içəridən gələn bir əməldir. İnsan onun vasitəsilə yenilməz bir qüvvənin eşq-məhəbbətinə doğru yüksəlir.

Dinə verilən bütün bu təriflərin hamısında müəyyən iradlar və çatışmazlıqlar tapmaq olar. Tərif və izahların müştərək nöqtəsi budur ki, onların hamısı səmavi vəhyə, mütləq vücud sahibinin (yəni Pərvərdigarın) varlığına inama əsaslanır. Ona görə də belə tərifləri yalnız ilahi dinlərə aid etmək olar. Halbuki, bəşəri əqidələrin arasında qeyri-İlahi dinlər də mövcuddur. Kor- təbii surətdə yaranaraq təkcə insan ağlına əsaslanan, yaxud xəyal və gümanlardan yaranan xurafat dinlər və ümumiyyətlə bütlərə, ulduzlara, mələklərə və s. əsaslanan dinlər də vardır. Bunları nəzərə alsaq, belə dinlər yuxarıdakı tərifdən kənarda qalacaq. Halbuki, Quran nöqteyi-nəzərindən bu kimi düzgün olmayan əqidələr də "din" adlandırılmışdır. Ali-İmran surəsinin 85-ci ayəsində oxuyuruq: " - Hər kim İslamdan başqa bir din ardınca gedərsə, heç vaxt ondan qəbul olunmaz."

Bundan əlavə, "Kafirun" surəsinin 5-ci ayəsində buyurulur: " - Sizin öz dininiz və mənim də öz dinim vardır."

Yuxarıda qeyd olunan bu çatışmazlıqlar, bəzi dinşünas alimlərin dinin tərifini genişləndirməsinə səbəb olmuşdur. Onlar dinin tərifində yazırlar: "Din, insanların mütləq azadlığına və özbaşınalıqlarına mane olan çəkinmələr və pəhrizlər toplusuna deyilir."

Başqa bir tərifdə deyilir: " - Din, insanların müqəddəs hadisə və varlıqlarla bağlı olan əməl və etiqadlarından ibarətdir ki, onlar bir-biri ilə sıx əlaqədədir."

Yuxarıdakı iki tərifdə mütləq vücud və varlıq sahibindən danışılmır. Bu kimi izahları qəbul edənlər, əslində qeyri-İlahi dinləri də dinin tərifinə daxil etmək istəmişlər. Lakin bu mövzuda başqa bir məsələyə də diqqət yetirmək lazımdır. Dinlər tarixi barədə nəzəriyyə irəli sürən tarixçilər yekdilliklə bu qənaətə gəliblər ki, bəşər tarixində formalaşan bütün cəmiyyətlərdə daimi olaraq, insan həyatının əvvəli və sonu, varlığın və yaradılışın səbəbləri haqda düşünüblər. Bu barədə onlar müəyyən fikirlər irəli sürmüş və ona etiqad bəsləmişlər; düzgün və ya səhv, haqq və ya batil, ağıl və məntiqə uyğun və ya xurafi olmasından asılı olmayaraq, onları qəbul etmişlər. Başqa sözlə desək, xurafi dinlərin meydana gəlməsi insanların özü barəsindəki suallara necə cavab tapmalarından asılı olub. İnsanlar daim "Haradan gəlmişəm?", "Nə üçün gəlmişəm?", "Hara gedirəm?" və bu kimi digər suallara cavab tapmağa çalışıb. İlahi və xurafi olmasından asılı olmayaraq, demək olar ki, bütün dinlər varlığın nizam və quruluşu barədə müxtəlif

cür düşünüb müəyyən nəzəriyyələr irəli sürüblər. Onların arasında nəzərə çarpan fərq, yalnız bu fikirlərin məntiq və əql və ya xurafat və mövhumat əsasında olmasındadır. Gələcək yazılarda öyrənəcəyik ki, "Buddizm", "Caynizm" və "Konfisiyus" əqidələrində varlığın yaradanına etiqadın olmasını təsəvvür etmək səhv və qəbulolunmazdır. Buradan məlum olur ki, varlığın mənşəyinə etiqad bütün dinlərin əsas özəyini təşkil edir. Diqqət olunmalı başqa bir əsas da "pərəstiş və ibadətin əsasları"dır ki, yuxarıdakı təriflərin bəzilərində öz əksini tapmışdır.

İnsan varlıq aləminin başlanğıcını dərk etdikdən sonra başa düşür ki, onun yaradanı sonsuz qüdrət və diqqət sahibidir. İstər-istəməz insan Onun bu əzəmət və qüdrəti qarşısında özünü zəif, gücsüz və möhtac hesab edir. Ona görə də insanda bütün qəlbi ilə əyilmə, boyun əymə, itaət hissi yaranır. Bu hisslə yanaşı insanda mütləq varlıq müqabilində ehtiyac hissi və müqəddəs bilmək, məhəbbətini izhar etmək hissi əmələ gəlir. Belə bir halətə ibadət və pərəstiş deyilir. Əslində, insan bir tərəfdən varlığın Yaradanının qəzəb və tədbirinin qorxusundan amanda qalmaq, başqa tərəfdən də Onun razılığını, lütf və mərhəmətini qazanmaq istəyir; Ondan kömək almaqla öz ehtiyaclarını təmin etməyə çalışır. Bu iş adətən xüsusi əməl və zikrlər vasitəsilə həyata keçirilir; bu hər bir din və məzhəbdə özünə xas şəkildə, müxtəlif cür baş verir. Ona görə də hər bir dinin ibadət və mərasimləri başqa dinlərdən fərqlidir. Müəyyən bir dinə etiqad bəsləyən şəxsin ibadət forması onun "varlıq mənşəyini" necə tanımasını və dərk etməsini göstərir. Qeyd etmək lazımdır ki, dində boyun əymə və itaət yalnız varlığı idarə edən yenilməz qüvvə sahibinə tabe olmaqdan ibarət deyil. Çünki, varlıq aləmində yerin cazibə qüvvəsi kimi elə qüvvələr vardır ki, insanlar istər-istəməz onlara boyun əyir və tabe olur. Bu kimi hallara adətən ibadət deyilmir. İbadət elə bir təzim, itaət və boyun əyməyə deyilir ki, əvvəla o, təzim olunan və müqəddəs sanılan bir zat və həqiqi varlığın müqabilində olsun. Məlum olduğu kimi, varlıq aləmində heç bir qüvvə təkcə qorxulu və qəzəbli olduğu üçün müqəddəs sayılmır və təzim olunmur. İkincisi, elə bir zat və varlıqı müqəddəs sayılır və təzim olunur ki, mütləq dərəcədə kamala və yenilməz vəsflərə malik olsun. Belə ki, o zat və qüdrət bütün varlıqlardan üstün olmalıdır ki, insan bu mütləqiyyətə görə özünü ona möhtac bilib onun müqabilində pərəstiş hissi keçirsin.

Beləliklə, məlum olur ki, hər hansı bir varlığı müqəddəs sanmaq və ya ona təzim etmək heç də həmişə sitayiş etməklə yanaşı olmur. Məsələn biz şərəf, namus, azadlıq, səxavət və s. bu kimi məfhumlara dərin hörmət və təzimlə yanaşır, lakin heç vaxt onlara ibadət və pərəstiş etmirik.

Üçüncüsü, elə bir zat və qüdrətə pərəstiş olunur ki, təbiət və maddi varlıqların növündən olmasın. Bu zat və varlıq hər bir şeydən yüksək olub, bütün varlıqlara hakim olmalıdır; bütün yaranmışlarda dəyişiklik etmək qüdrətinə malik olub, mənəvi və maddi ehtiyaclarımızı ödəyə bilməlidir.

Nəhayət, bu ulu və müqəddəs Zat bütün varlıq aləminin tədbirini öz üzərinə götürməlidir; varlıqlardan və mövcudatdan ayrı olmamalı, bəşəriyyətlə, bütün yaranmışlarla dərin və qırılmaz tellərlə bağlanmalıdır; onların bütün sirlərini və ehtiyaclarını bilməlidir, dərd-qəmindən və



istəklərindən xəbərdar olmalıdır. O, hər bir dində mövcud olan - xüsusi şərtlərə riayət olunduqda onları istəklərinə çatdırmalıdır. Beləliklə, aydın olur ki, dində boyun əymə və təzim hissi əslində varlıq aləminin mənşəyi olan məbud kimi pərəstiş və ibadət olunan yenilməz qüvvət və qüdrət sahibini müqəddəs sayıb ona təzim etməkdən ibarətdir. Burada belə bir sual qarşıya çıxa bilər. Bu qayda-qanunlar bütün ilahi və qeyri-ilahi dinlərə də aiddirmi?

Məlum olduğu kimi, bir çox ibtidai-xurafi dinlərdə daş, ağac, çay, dəniz, ulduz, quşlar və bu kimi digər şeylər müqəddəs sayılır və insanlar onlara pərəstiş edirdilər. Amma yuxarıda sadaladığımız xüsusiyyətlərin heç biri onlarda yoxdur.

Bu sualın cavabında demək lazımdır ki, belə ibtidai dinlərin ardıcıllarının fikirlərini, düşüncə tərzlərini tədqiq etdikdə məlum olur ki, bizim "totem" və ya "büt" adlandırdıqlarımızın heç birinə onlar heç vaxt müstəqil bir rəbb və məbud inancı ilə ibadət etməyiblər. Yəni, heç də ibtidai insanlar daş, ağac və s. şeylərə, onların həyatında və işlərində hansısa bir ehtiyaclarını ödəyə biləcək bir tərzdə əqidə bəsləməyiblər. Onlar öz səhv etiqadlarına görə bütün bunları uca və yenilməz qüdrətin feyz və rəhmət vasitəsi hesab edirdilər; güman edirlərmiş ki, bu əşyaları müqəddəsləşdirməklə və onlara təzim etməklə həqiqi rəbbi özlərindən razı salar və yaxud onların vasitəsilə öz hacət və istəklərinə çatarlar. Onlar bu "totem" və "büt"ləri etiqad bəslədikləri həqiqi məbudun xüsusiyyətlərinin təcəllisi kimi düşünürdülər.

Qurani-Kərimdə bütpərəstlərin məntiqi və onların bütləri müqəddəsləşdirmələrinin səbəbi barəsində belə oxuyuruq: "(Bütpərəstlər) dedilər: "Biz bunlara (bütlərə) yalnız Allaha yaxın olmaqdan ötrü pərəstiş edirik.

1. Varlıq aləminin sahibinə etiqad - yəni öz yenilməz qüvvət və qüdrəti ilə varlıq aləmini idarə edənə etiqad.

2. Bu etiqaddan doğan tələblərə əməl etmək və onun mütləq varlıq sahibinə məbud, rəbb adı ilə təzim və pərəstiş etmək - bu yolla onun razılığını qazanıb, maddi-mənəvi ehtiyaclarımızı təmin etmək.

**Seyid Əhməd** *("Dinlərlə tanışlıq" kitabından)*

# ALLAH QORXUSUNUN 7 ƏLAMƏTİ

*Mömin, bədəninin bütün üzvləri ilə Allahdan qorxandır. Necə ki, böyük əxlaq və fiqh alimi Əbu Leys əs-Səmərqəndi, Allah qorxusunun yeddi əlaməti olduğunu xəbər verər. Bunlar belədir:*

*1. Dil yalandan uzaqlaşar*
*Allahdan qorxan qul dilini yalandan, dedi-qodudan, intriqaçılıqdan, böhtandan və boş danışmaqdan qoruyar, bunlar yerinə onu zikrlə, Quran oxumaqla və elmi danışmalarla məşğul edər.*

*2. Qəlbdən qısqanclıq qalxar*
*Allahdan qorxan qul başqalarına qarşı ürəyində düşmənçilik, böhtan və qısqanclıq saxlamaz. Çünki qısqanclıq yaxşılıqları məhv edər. Necə ki, Peyğəmbərimiz (s) belə buyurar: Ataş odunu necə yeyərsə qısqanclıq da yaxşılıqları elə yeyər (yox edər).*
*Biləsiniz ki, qısqanclıq, ürək xəstəliklərinin başlıca əlamətlərindən biridir və bu xəstəliklər də ancaq elmlə və yaxşı əməllər edərək müalicə edilə bilər.*

*3. Göz harama baxmaz.*
*Allahdan qorxan qul, haram yeməyə, haram içkiyə, haram geyəcəyə vs. (qısacası) haram olan heç bir şeyə baxmaz. Dünyaya ac gözlərlə deyil, ibrət götürmək məqsədi ilə baxar. Halal olmayan şeylərdən baxışlarını uzaq tutar. Necə ki, Peyğəmbərimiz (s) belə buyurar: "Kim gözünü haramla doldursa, Allah da onun gözünü qiyamət günü odla doldurar".*

*4. Haram tikə yeməz.*
*Allahdan qorxan qul, qarnına haram tikə soxmaz; çünki haram tikə yemək, ağır günahlardan biridir. Necə ki, Peyğəmbərimiz (s) belə buyurur:*
*"İnsanoğlunun qarnına haram bir tikə enincə, tikə mədəsində qaldığı müddətcə yerdə və göylərdəki mələklər təkrar təkrar üzərinə lənət yağdırarlar. O tikəni həzm edərkən öldüyü anda gedəcəyi yer cəhənnəmdir".*

*5. Əllər Allah rizası üçün işləyər.*
*Allah qorxusu olan kimsə, əllərini harama deyil, Allahın razılığına uyğun şeylərə doğru uzadar. Necə ki, səhabələrdən Kabul Ahbarın belə dediyi rəvayət edilər: Allah, hər bir bölümü yetmiş min gözlü yetmiş min bölümü olan yaqutdan edilmə bir köşk yaratmışdır. Qiyamət günü bu köşkə; ancaq önlərinə çıxan haram şeylərdən Allah qorxusu ilə uzaq duranlar girə biləcəklər.*

*6. Ayaqlar Allah üçün gedər*
*Allah qorxusu olan kimsə, günah işləməyə deyil, Allahın əmrinə uyğun və ONUN razılığını qazandıracaq işlərə doğru gedər, alimlərlə və yaxşı əməl işləyənlərlə görüşmək məqsədi ilə addım atar.*

*7. İbadətinə riya (özünü göstərmək) qarışmaz*
*Allah qorxusu olan kimsə ibadətini sırf Allah rizası üçün edər, riyadan və münafiqlikdən çəkinər, beləliklə Allahın haqlarında belə buyurduğu kəslərdən biri olar: "Rəbbinin qatında axirət, günahlardan qorxanlar üçündür". (Zuxruf/35)*
*"Günahlarından çəkinənlər, heç şübhəsiz, cənnətlərdə və bulaqların başlarındadırlar". (Zariyat/15)*
*"Günahlardan çəkinənlər cənnət və nemətlər içindədirlər". (Tur/17)*
*"Günahlardan çəkinənlər əmin bir mövqedədirlər". (Duhan)*
*Möminin qorxu ilə ümid arasında olması lazımdır. Buna görə bir tərəfdən ümid kəsmədən Allahın rəhmətini gözləyərkən digər tərəfdən ibadət halı içində çirkin hər şeydən uzaqlaşmalıdır.*

# AZ YEMƏNİN FAYDALARI

***Az yeməyin və ac qalmağın bir çox faydaları vardır:***

**1. Ruh və cismin sağlam qalması.**
İmam Sadiq (ə) buyurur: “Az yemək - bütün dünya insanları yanında bəyənilən sifətlərdəndir, zahir və batinin faydasınadır”.
İnsan qəlbi üçün çox yeməkdən təhlükəli bir şey yoxdur. Çox yemək iki şeyi irs qoyar:
a) Qəlb qəsavətini.
b) Gizli şəhvəti təhrik etməyi.

**Çox yeməmək** - qəlb və ruh üçün ən gözəl dərmandır. İmam Sadiq (ə) buyurur: “Hər dərd və xəstəlik çox yeməkdən və həzmsizlikdən hasil olur, hərarətdən başqa”.
İmam Kazım (ə) buyurur: “Əgər insan yeyən zaman mötədil olarsa, bədəni sağlam qalar”.
İmam Əli (ə) buyurur: “Aclıq və xəstəlik bir yerə sığışmaz”.
“Çox yemək adətindən çəkinin. Bu iş xəstəliklərin və dərdlərin mənbəyidir”.
“Az yemək - nəfsi əziz və sağlamlığı davamlı edər”.

**2. Pak düşüncə.**
İmam Əli (ə) buyurur: “Hər kim yeyən zaman ölçüsü olarsa, sağlamlığı artar və düşüncəsi sağlam qalar”.
İmam Səccad (ə) buyurur: “Hər kim Allahı düşünər, Ondan qorxar, Onun üçün iş görərsə, gərək özünü aclıqla təmrin məşq etsin”.

**3. Yeməkdən ləzzət almaq.**
İmam Hadi (ə) buyurur: “Gecə oyaq qalmaq - yuxunu şirin və aclıq - yeməyi ləzzətli edər”.

**4. Allah yanında ən sevimli əməl.**
Həzrət Peyğəmbər (s) buyurur: “Nəfsinizlə cihad edin, aclıq və susuzluğunuzla. Əcri o kəsin əcri kimidir ki, Allah yolunda cihad edər. Allah yanında aclıq və susuzluqdan daha sevimli əməl yoxdur”.

**5. Hesabı asan edər.**
İmam Əli (ə) buyurur: “Hər kimin yeməyi az olarsa (yəni az yeyərsə), az hesab verər”. Peyğəmbər (s) buyurur:“Xoş olsun o insanın halına ki, yemək yeməsin və aclıq çəksin. Çünki onlar qiyamət günü tox olarlar”.

**6. İlahi Övliyaların zümrəsinə daxil olar.**
Həzrət Peyğəmbərdən (s) soruşurlar: “Alicənab insanların əlaməti nədir?”. Həzrət (s) buyurur: “Dünyada zindanlıdırlar. Dillərini çox danışmaqdan saxlayarlar. Qarınlarını çox yeməkdən saxlayarlar”.

**7. Mələklərin sevimlisi olar.**
Həzrət Peyğəmbər (s) buyurur: “Hər kim haqqı çoxlu təsbih edər, az yeyər və az içər, az yatar, mələklər onun müştaqı olarlar”.

**8. Hikmət əta olunar.**
Həzrət Peyğəmbər (s) buyurur: “Hikmət nuru - aclıqdır. Toxluq Allahdan uzaqlaşmaqdır. Ona görə də tox olmayın ki, mərifət nuru qəlblərinizdə sönər”.

**9. İbadət.**
Həzrət Peyğəmbər (s) buyurur: “Az yemək - ibadətdir”.

**10. Qəlbin Allahı görməsi.**
Həzrət İsa (ə) buyurur: “Mədələrinizə aclıq verin. Bəlkə bu yolla qəlbləriniz Allahı görsün”.

# ƏQİQ DAŞININ FAYDA VƏ FƏZİLƏTLƏRİ









***Əqiq (Aqat) daşına Yəmən, Hindistan, İran və Çin kimi ölkələrdə qırmızı, sarı və ağ rəngdə rast gəlinir. Bəs görəsən, əqiq daşının hansı növü barəsində fəzilətlər və faydalar qeyd olunub?! Bu faydalar əqiqin bütün növlərinə aiddir, yoxsa, yalnızca Yəmən əqiqinə məxsusdur?!***

İbn Şəhr Aşub nəql edir ki, bir gün Cəbrail (ə) Peyğəmbərə (s) nazil olub buyurdu: -Ey Allahın Rəsulu (s), Allah-təala sənə salam göndərib buyurdu: "Üzüyünü sağ əlinə tax və qaşını əqiqdən et. Əmin oğlu Əliyə (ə) də de, üzüyünü sağ əlinə salıb qaşını əqiqdən etsin."

Peyğəmbər (s) Cəbrailin (ə) gətirdiyi xəbəri İmam Əliyə (ə) çatdırdı. Həzrət Əli (ə) buyurdu: - Ey Allahın Rəsulu (s), əqiq nədir? Peyğəmbər (s) buyurdu: -Əqiq, Yəməndə bir dağ adıdır. ("Mənaqib" 3/87, "Biharul-ənvar" 42/61)

Bir çox faktlara əsasən demək olar ki, əqiq üçün deyilmiş xüsusiyyətlər "Yəmən əqiqi" və xüsusilə "qırmızı əqiq"ə aiddir. Lakin İran, Çin, Hindistan və s. məntəqələrin əqiqinin heç bir xüsusiyyəti olmadığını demək olmaz. Sadəcə, bu cür xüsusiyyətlər kamil surətdə onlarda yoxdur. Nəql olunan rəvayətlərə əsasən İmamların (ə) bəzisində "Roma əqiqi" olub (Kafi, c.2, səh.470). Əgər Roma əqiqinin heç bir fəziləti olmasaydı, şübhəsiz ki, həmin məsumlar (ə) onu barmağına taxmazdı. Qeyd etmək lazımdır ki, Yəməndə əqiq mədəni Sənan şəhərinin cənubunda yerləşir.

Əqiq daşının fəzilətləri:

1. Allaha, Peyğəmbərə (s) və Əhli-Beytə (ə) ilk iman gətirmiş daş.

Salman Farsi rəvayət edir ki, bir gün Peyğəmbər (s) Həzrət Əliyə (ə) buyurdu: -Ey Əli, üzüyünü sağ əlinə tax ki, Allaha yaxın olanlardan olasan! Həzrət Əli (ə) soruşdu: -Ey Allahın Rəsulu... barmaqıma hansı üzüyü taxım? Peyğəmbər (s) buyurdu: -Qırmızı əqiq, həqiqətən əqiq daşı ilk daşdır ki, Allahın təkliyinə, mənim peyğəmbərliyimə və sənin vəsiliyinə, səndən sonra övladlarının imamətinə və səni sevənlər, övladlarının tərəfdarları üçün behiştin olmasına iqrar edib! ("Bihar", 42/69)

2. Daşlar arasında ən imanlı olan.

İmam Sadiq (ə) buyurur: -İstəyirəm, bizim tərəfdarlarımızdan hər bir möminin əlində beş üzük olsun. Onlardan biri əqiqdir. Çünki əqiq daşlar arasında Allaha və biz Əhli-beytə (ə) ən imanlısı və mömin olanıdır. ("Vəsail" c.14, səh.403)

3. İmam Əlinin (ə) vilayətinə şəhadət verən ilk dağ.

İmam Rza (ə) Qədir-xum gününün fəziləti barəsində danışarkən buyurdu: -Allah-təala Əmirəl-mömininin (ə) vilayətini səmanın yeddi qatında

olanlara ərz etdi. Vilayətə iman gətirən ilk şəxslər səmanın yeddinci qatının sakinləri oldu. Allah-təala onların bu əməlinə görə səmanın yeddinci qatını öz ərşi ilə bəzədi və ərşini orada qərar verdi... Sonra vilayəti yerə (yerin yeddi qatına) ərz etdi. Əmirəl-mömininin (ə) vilayətinə ilk iqrar edən yer Məkkə oldu. Buna görə Allah oranı Kəbə ilə bəzədi. Sonra Mədinə iman gətirdi. Allah oranı Peyğəmbərin (s) vücudu ilə bəzədi. Sonra Kufə ərazisi iman gətirdi. Allah oranı İmam Əlinin (ə) vücudu ilə bəzədi. Sonra Allah vilayəti dağlara ərz etdi. İlk iman gətirən dağlar əqiq, firuzə və yaqut dağlarıdır. ("Biharul-ənvar", 27/262)

4. Bəşir İmam Sadiqə (ə) dedi: -Sizə fəda olum, üzüyümə hansı qaşı taxım? Həzrət buyurdu: "Ey Bəşir, niyə qırmızı, sarı və ya ağ əqiqin istifadəsindən qafilsən? Həqiqətən bu 3 əqiq Behiştdə olan 3 dağdır. Qırmızı əqiq dağı Peyğəmbərin (s) Behiştdəki evinə, sarı əqiq dağı Xanım Fatimənin (s.ə) Behiştdəki evinə və ağ əqiq dağı Əlinin (ə) Behiştdəki evinə kölgə salır və bu evlərin hamısı birdir. Həqiqətən bu üç dağ Allaha təsbih və təqdis deyirlər və Ali-Muhəmmədin (s) dostları, sevənləri üçün istiğfar edirlər." ("Bihar", cild 8, səh 187)

5. İmam Sadiq (ə) buyurur: "Əqiq daşı olan üzük taxın. Həqiqətən Allah Musa (ə) ilə əqiq dağı üzərində danışıb və Musa (ə) bu dağda Kəlimullah məqamına yetişib." ("Məkarimul-əxlaq", səh.87)

6. Peyğəmbər (s) buyurur: "Merac gecəsində səmalara səfər etdim. Bir mərtəbəyə yetişdim ki, rübubiyyət məqamında ondan yaxın olmağı təsvir etmək mümkün deyil. Allah-təala mənimlə orada iki əqiq dağı arasında danışırdı." ("Əş-şiə fi əhadisil-fəriqin", səh.178)

Əqiq daşına aid hekayələr və adablar:

1. Fəqir bir şəxs məscidə daxil olaraq səhabələrdən kömək istədi. Namaz halında olan İmam Əlidən (ə) başqa heç kim ona kömək etmədi. Bu zaman vilayət ayəsi olan Maidə surəsinin 55-ci ayəsi nazil oldu: "Həqiqətən sizin başçınız və işlərinizin ixtiyar sahibi yalnız Allah, Onun peyğəmbəri və iman gətirənlər-namaz qılıb rüku halında zəkat verən kəslərdir." Əmirəl-mömininin (ə) fəqir şəxsə verdiyi üzük qırmızı Yəmən əqiqi idi! ("Şəvahidul-tənzil", 1/212)

2. Bir çox şəxsiyyətlərin və alimlərin adəti belə olub ki, əqiq daşı üzərinə Allah-təalanın adını və 14 Məsumun (ə) adlarını həkk etdirərək vəsiyyət ediblər ki, dünyalarını dəyişdikdən sonra dəfn zamanı bunu onun ağzına qoysunlar. Bu, çox tövsiyə olunan müstəhəblərdən biridir. ("Biharul-ənvar", 79/51)

3. İstixarə edən şəxs sağ əlinə üzərində "Muhəmməd və Əli" adları yazılmış əqiq üzük taxsın. Sonra sağ əlini yumruq etsin. ("Misbahul-Kəfəmi, səh.392)

4. İmam Hüseynin (ə) türbətini yeməyin və ondan şəfa almağın adabı haqqında belə zikr olunur ki, türbətdən istifadə etmək istədikdə əlinə üzərində "Ma şaəllah la quvvətə illa billah əstəğfirullah" yazısı həkk olunmuş əqiq qaşı olan gümüş üzük tax. ("Biharul-ənvar", 98/137)

Əqiq daşının faydaları:

1. İmam Rza (ə) buyurur: "Əqiq fəqirliyi aradan aparır. Əqiqi barmağa taxmaq nifaqı da məhv edir. Hər kim qaşı əqiq daşından olan üzük taxarsa, fəqir olmaz." ("Kafi", 6/470,471)

2. İmam Baqir (ə) buyurur: "Hər kim əqiqin növlərindən birini əlinə taxsa və biz Əhli-beytin (ə) tərəfdarlarından olarsa, xeyir, yaxşılıq və ruzinin artmasını görər və camaatdan ehtiyacsız olar." ("Bihar", 37/42)

3. İmam Əli buyurur: "Hər kim əqiq qaşlı üzük taxıb iki rəkət namaz qılarsa, həmin namazın savabı əqiq üzüksüz qılınan min rəkətlik namazın savabı qədər olar." ("Bihar", 80/187)

4. İmam Sadiq (ə) buyurur: "Əqiq üzük taxmaq əlin kəsilməsinin qarşısını alar. Həmçinin şiddətli qanaxmanın da qarşısını alar." ("Məkarimul-əxlaq", səh.88)

5. İmam Səccad (ə) buyurur: "Əziz İslam Peyğəmbəri buyurub ki, hər kim əqiq üzük taxarsa (və dua edərsə) Allah onun hacətlərini qəbul edər." ("Kafi", 6/470)

6. İmam Baqir (ə) buyurur: "Ələ əqiq üzük taxmaq insanı zalim sultanın (hakimin) şərrindən və qorxduğu hər bir şeydən qoruyar." ("Vəsail", 5/88)

7. İmam Sadiq (ə) buyurur: "Əqiq səfər qoruyucusudur. Səfər zamanı əqiq üzük taxmaq insanı səfər xətalarından qoruyur." ("Kafi", 6/470)

8. İmam Əli (ə) buyurur: "Əlinizə əqiq üzük taxın ki, onda bəlalardan və hadisələrdən amanda qalmağınız üçün bərəkət qərar verilib." ("Vəsail", 5/91)

9. Peyğəmbər (s) buyurur: "Əlinizə əqiq üzük taxın. Həqiqətən əlinizdə əqiq üzük olduğu halda qəlbinizə qəm-kədər daxil olmaz." ("Məkarimul-əxlaq", səh.87)

***Muvəhhid Əbtəhi*** *"Daşların sirləri və xüsusiyyətləri"*

# XURŞUDBANU NATƏVAN

## ÖZÜNÜ XANIM FATİMEYİ-ZƏHRANIN (S.Ə) KƏNİZİ HESAB EDƏN XANIM



*Azərbaycanın tanınmış şairələrindən olan Xurşudbanu Natəvan 15 avqust 1832-ci ildə Şuşada anadan olmuşdur. Xurşudbanu ailənin yeganə övladı, həm də Qarabağ xanlıqlarının sonuncu vərəsəsi olduğu üçün onu sarayda « Dürrü yeкta» (Təк inci), el arasında isə «Xan qızı» çağırmışlar.*

*Natəvan məktəb yaşına çatdıqda evdə dövrün alim və sənətkarlarından dərs almağa başlamışdır. Məşğələ zamanı Xurşudbanu «Quran» ayələrini və dini ehkamları əzbərləməklə yanaşı, dünyəvi elmlərlə də tanış olmuşdur. XIX əsrdə кübar ailələrin uşaqlarına bir qayda olaraq doğma dili ilə bərabər, ərəb və fars dili, onun sərfi-nəhvi təlim edildiyindən, Xan qızı da bu dilləri öyrənmiş, onların vasitəsilə klassik şerin qayda-qanunlarını mənimsəmişdir.*

*Xurşudbanu Natəvan Azərbaycan mədəniyyətində və ictimai həyatında dərin izlər qoymuşdur. Natəvanın istedadının üzə çıxması və çiçəklənməsinin başqa bir səbəbi, şübhəsiz, Şuşanın təkraredilməz yaradıcı ab-havası və mühiti də olmuşdur.*

*Xurşudbanu Natəvan 1897-ci il, 1 oktyabrda vəfat etmişdir və Ağdamın "İmarət" qəbristanlığında dəfn olunmuşdur. Adına küçə, kitabxana və məktəb vardır. Xan qızının əlyazmaları, şəxsi geyim və əşyaları nadir eksponat kimi arxiv və muzeylərimizdə saxlanılır.*

*Şairə xanım Xurşudbanu Natəvan beytlərinin birində özünü Xanım Fatimeyi-Zəhranın (s.ə) kənizinə nisbət verərək bunları deyir:*

*Fatimənin (s.ə) kənizi, bu qissəni eylə kim, tamam,*
*Bir-birə dəydü mərdü zən, şurə gəlibdü xasu am,*
*Növhə edər bu Natəvan, ruzi-şəb ağlayar müdam,*
*Tapmasa bir dəri-nicat, dari-bəqayə gəlməsün.*

# *Opuşkin Vitali Aleksandroviç necə Hacı Məhəmməd oldu?*



**"Spirtli içkilərə meyl salmışdım. İslamı qəbul edən kimi hamısını atdım. İnsanları həmişə İslama çağırmışam, çağıracam da. Allah yoluna gəlsinlər, namaza gəlsinlər. Çünki ondan doğru yol yoxdur". 50 yaşında İslam dinini qəbul edən Məhəmməd Müslimzadə (Opuşkin Vitali Aleksandroviç) bu yaşda dinini dəyişməsini belə izah edir.**

***Məhəmməd Müslimzadə İslamı ədalətli, saf din adlandırır: "Çox çətinliklərim var idi. Bunların öhdəsindən gəlmək elə də asan deyildi. Belə bir vəziyyətdə İslam dininə gəlmək qərarı verdim. İnsan çətin anında Allaha yaxınlaşır. Allah da elə vəziyyətimdə mənə güc verdi. İslama gələndən sonra bütün çətinliklərin öhdəsindən gəldim, pis vərdişlərimdən - spirtli içkidən, siqaretdən əl çəkdim. Hətta 50 yaşdan sonra güləşməyə başladım. Usta güləşçilər arasında keçirilən beynəlxalq yarışlarda böyük uğurlar qazandım".***

***2012-ci ilin noyabr ayında ABŞ-ın Mayami şəhərində keçiriləcək beynəlxalq yarışa yola düşəcəyini deyən Məhəmməd Müslimzadə indiyə qədər yeddi dəfə Azərbaycan bayrağını ayrı-ayrı beynəlxalq yarışlarda dalğalandırdığını vurğulayıb: "Bütün bunlara Allahın mənim üçün açdığı yolla çatmışam. İslamı qəbul etmək mənə güc verdi, məni doğru yola yönəltdi".***

***Məhəmməd Müslimzadə 1999-cu ildə İslam dininə gəlmək qərarını necə verdiyini belə xatırlayıb: "Həmin vaxtlarda ruhi dinclik axtarır, bunu heç yerdə tapa bilmirdim. İçkiyə, siqaretə qurşanmışdım. Hərdən məscid qarşısından keçirdim, azan səsi eşidirdim. Hər dəfə bu səs məni uzun-uzadı düşüncələrə qərq edirdi. Günlərin bir günü mən də müsəlman olmaq qərarı verdim və həmin gün mənim heç vaxt yadımdan çıxmaz. Elə bil, yenidən dünyaya gəldim. Əgər İslamı qəbul edirdimsə, adımın da dinə uyğun olmasını vacib bildim, peyğəmbərin şərəfinə Məhəmməd adını götürdüm. 50 yaşında bir xristianın İslama gəlişini eşidib mənimlə çox adam maraqlandı, hətta haqqımda film-portret də çəkildi".***

***Məhəmməd Müslimzadə qeyd edir ki, Məkkəyə mərhum prezident Heydər Əliyevin yardımı ilə yola düşüb: "O vaxt haqqımda çəkilən filmi görüb prezident mənim həcc ziyarətinə göndərilməyim haqda tapşırıq vermişdi".***

# TAPMACALAR



*Gələr bir, bir, gedər bir, bir, qalar bir, nə yerdədir, nə göydədir, o bir sırr.*

Allah-taala

*Dünya bir əkin yeri, Axirət biçim yeri, çalış çabala, oraya daxil olmaq üçün iman şərtdir adama.*

Cənnət

*Son sözümüz o olsun, ruhumuz nurlarla dolsun, Deyən müsəlman olsun …*

Kəlimeyi şəhadət

*Hər iş onla başlar, bir sözdür ki, şeytan qaçırar, kiliddir, hər qapıyı açar, …*

Bismillah

*Bir otaqdan bir otağa keçitdir,*
*İnanmayana puçluqdur, heçdir...*

Ölüm

*Minarədə səs, ölümsüz nəfəs*

Azan

*Əyilərsən, qalxarsan, bəhanələri qırarsan,*
*Ayaq üstə olanda üzü Kəbəyə baxarsan...*

Namaz

*Ayların sultanıdır, Allahın ayı…*

Ramazan

*Dörd bucaqdır beş deyil, kimsə ondan xoş deyil…*

Qəbir

*Doxsan doqquz camaat iki müəzzin bir imam…*

Təsbih

*Düzəldən satar, alan işlətməz, işlədən heç bilməz.*

Tabut

*Başı Fatihə sonu Nas, iç nurundan tas bə tas…*

Qurani-Kərim

*Vəfası yox bir gün ayrılar, bəzi insanlar ona çox bağlanar, fanidir onun da sonu var, əcəl bir gün onu da alar…*

Dünya

*Maldan paradan verilir beşdən bir. Onunla Cənnətə getmədən Cənnət olur elə qəbir…*

Xums

*Həsrətliləri qovuşdurur, küslüləri barışdırır, qurbanları paylaşdırır.*

Qurban bayramı

*Qaş ilə gözdən yaxın, söylənən sözdən yaxın…*

Əcəl

*Gözdən damlar; gah da sel olar. Hüseyn (ə) yolunda olarsa, Cəhənnəm Cənnət olar…*

Göz yaşı

*Allahdan aldığı əmri yetirər peyğəmbərə.*
*O vəhy mələyidir. Salam onun üzərinə…*

Cəbrail (ə)

*Göydən bir alma düşdü, on iki parça oldu on birini yedilər, birinə olmaz dedilər.*

Ramazan ayı

*Adəm Peyğəmbərin sahib olmadığı, ama hər adamın sahib olduğu dəyərlər nədir?*

Ata-ana

*Ağız qapalıdır yeməz içməz… İslamın şərtidir, əsla vaz keçilməz..*

Oruc

*“Şəhadət barmağı kimi” göyə yüksələr. Hər gün namaz vaxtı Allahu əkbər deyilər.*

Minarə

# İmam Hüseynin (ə) hərəminin muzeyindəki qiymətli tarixi əsərlər

***İmam Hüseynin (əleyhi səlam) hərəmində yaranmış muzeyin təsis edilmə zamanı 2009-cu illərə qayıdır.***
***Belə ki, elə həmin illərdə qiymətli tarixi əsərlərin mövcud olduğunu nəzərə alaraq, muzey tərəfindən bir qrup mütəxəssis bu sahədə öz işinə başlamış və tarixi əsərlər üzərində tədqiqat işləri aparmışdır.***
***Mütəxəssislər araşdırmalardan sonra Kərbəla ziyarətinə gələrək padişahlar, və zəmanəsinin sair adlı sanlı, habelə digər zəvvarlar tərəfindən İmam Hüseynin (əleyhi səlam) hərəminə vəqf etdikləri bahalı əşyaların adlarını açıqlayıblar.***
***Təəssüflə qeyd etməliyik ki, son dövrlərdə bəzi ölkələrin İraq Respublikasına silahlı basqınları zamanı Bağdad, Nəcəf və Kərbəlada bir çox qiymətli tarixi əşyalar oğurlanaraq qarət edilmişdir.***















